17 iyul 2020-ci il
№21 (8885)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

**İlham ƏLİYEV,**
**Ali Baş Komandan**



# Hərbçilərimizin qisası alınıb, bundan sonra da alınacaqdır




- Ermənistan Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində növbəti hərbi təxribat törədib. Birinci dəfə deyil ki, dövlət sərhədində Ermənistan tərəfindən hərbi təxribatlar törədilir. Son bir neçə ay ərzində bu hərbi təxribatlar nəticəsində bizim hərbçilərimiz, eyni zamanda, mülki şəxslər həlak olmuşdur.

- Ermənistanın növbəti təxribatının qarşısı qətiyyətlə alınmışdır, adekvat cavab verilmişdir. Hərbçilərimizin qisası alınmışdır. Ermənistan tərəfinin bütün cəhdləri iflasa uğradı, Azərbaycan öz dövlət sərhədini qorudu və Ermənistan əsgərləri bir santimetr belə Azərbaycan torpağına keçə bilməmişlər.

- Artıq bütün dünya bilir ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bunu təsdiqləyən kifayət qədər sənədlər var və bu sənədləri biz indi geniş beynəlxalq ictimaiyyətə təqdim edirik. Eyni zamanda, bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır.

- Hərbçilərimizin qisası alınıb, bundan sonra da alınacaqdır. Hərbçilərimizin, şəhidlərimizin qanı yerdə qalmayıb və qalmayacaq. Biz bütün imkanlardan istifadə edib özümüzü qoruyacağıq və düşmənə yenidən onun öz yerini göstərəcəyik.





## E.M.Məmmədyarovun Azərbaycan Respublikasının Xarici işlər naziri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elmar Məhərrəm oğlu Məmmədyarov Azərbaycan Respublikasının Xarici işlər naziri vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 16 iyul 2020-ci il*

## C.Ə.Bayramovun Azərbaycan Respublikasının Təhsil naziri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ceyhun Əziz oğlu Bayramov Azərbaycan Respublikasının Təhsil naziri vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 16 iyul 2020-ci il*

## C.Ə.Bayramovun Azərbaycan Respublikasının Xarici işlər naziri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ceyhun Əziz oğlu Bayramov Azərbaycan Respublikasının Xarici işlər naziri təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 16 iyul 2020-ci il*

# Prezident İlham Əliyev Ceyhun Bayramovu Xarici İşlər naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da Ceyhun Bayramovu Xarici İşlər naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı qəbulda çıxış etdi.



## Prezident İlham Əliyevin çıxışı

Bu gün mən sizi Xarici İşlər naziri vəzifəsinə təyin edirəm. Əminəm ki, siz bu yüksək etimadı doğruldacaqsınız. Bu sahə sizin üçün yeni olsa da, idarəetmə təcrübəniz kifayət qədər böyükdür, müxtəlif vəzifələrdə işləmisiniz, o cümlədən nazir vəzifəsində.

Bununla bərabər, Azərbaycanın xarici siyasəti ilə bağlı mənim tərəfimdən dəfələrlə əsas istiqamətlər müəyyən edilmişdir və bu haqda açıqlamalar verilmişdir. Bizim xarici siyasətimiz açıqdır. Biz xarici siyasət prioritetlərimizi açıq şəkildə bəyan edirik və məqsədlərə çatmaq üçün ardıcıl siyasət aparırıq. Bütün ölkələrlə bərabərhüquqlu qarşılıqlı hörmət və etimad əsasında münasibətlərin qurulması bizim əsas prinsiplərimizdən biridir. Hesab edirəm ki, son illərdə Azərbaycan bu sahədə böyük uğurlar əldə edib. Azərbaycan dünya birliyinin ləyaqətli üzvüdür. Dünyada bizə olan hörmət artmaqdadır. Bunu müxtəlif vaxtlarda Azərbaycana beynəlxalq aləm tərəfindən göstərilən dəstək əyani şəkildə sübut edir. Bizim dünyadakı rolumuz artır, bölgədə ölkəmizin iştirakı olmadan, maraqları təmin edilmədən hər hansı bir layihənin icrası qeyri-mümkündür. Bizim siyasətimiz Azərbaycana illər boyu daha çox dostlar qazandırıbdır. Təsadüfi deyil ki, bu gün bizim beynəlxalq mövqelərimiz kifayət qədər güclüdür.

Əlbəttə ki, xarici siyasətlə bağlı əsas istiqamətləri mən bu gün bir daha qeyd edəcəyəm. Amma ondan əvvəl demək istəyirəm ki, ilk növbədə, nazirlik sistemində vəziyyət sağlamlaşdırılmalıdır. İlk növbədə, təhlil aparılmalıdır, nöqsanların aradan qaldırılması üçün əməli tədbirlər görülməlidir. Kadr siyasətində şəxsi tanışlıq, rəğbət, dostluq əlaqələri yox, peşəkarlıq, vətənpərvərlik və milli dəyərlər əsas olmalıdır. Peşəkar, Vətənə bağlı olan, bilikli və Azərbaycanın maraqlarını layiqincə müdafiə edə bilən kadrlar önə çəkilməlidir. Nazirlikdə müxtəlif idarələr, o cümlədən rəhbər işçilər arasındakı koordinasiya işləri lazımi səviyyədə təmin edilməlidir. Nazirliyin fəaliyyəti üçün əlavə tədbirlərin görülməsi haqqında sizdən təkliflər gözləyəcəyəm.

Bizim xarici nümayəndəliklərdə görülən işlər ciddi təhlil olunmalıdır, səfirliklərin işinin səmərəlilik əmsalı müəyyən edilməlidir. Bəzi hallarda bizim səfirliklərimizdə çalışan insanlar öz işinə laqeyd yanaşırlar, passiv olurlar, ölkəmizin maraqlarını lazımi səviyyədə müdafiə və təmin edə bilmirlər. Ölkəmiz haqqında reallıqları geniş ictimaiyyətə çatdıra bilmirlər, ya da ki, bunu etmək istəmirlər. Vaxtaşırı Azərbaycana qarşı ünvanlanan şər-böhtan xarakterli iradlara lazımi cavab verə bilmirlər, ya da ki, bunu etmək istəmirlər. Ona görə bütün bu məsələlər əlbəttə ki, sizin gündəlik fəaliyyətinizdə önəmli yer tutmalıdır. Bizim xarici nümayəndələrimiz, diplomatlarımız ölkəmizin maraqlarını tam təmin etməlidirlər. Mən deyə bilərəm ki, bizim xaricdə fəaliyyət göstərən diplomatlarımızın əksəriyyəti yüksək meyarlara cavab verir. Ancaq vəziyyət təhlil edilərkən, ilk növbədə, nöqsanlara fikir vermək lazımdır. Səfirliklərimiz xaricdə yaşayan, fəaliyyət göstərən Azərbaycan icmaları ilə sıx əlaqədə olmalıdırlar. Onlar diaspor təşkilatlarının koordinasiya işinə öz töhfəsini verməlidir ki, həm diaspor təşkilatları, həm səfirliklər Azərbaycanın maraqlarını təmin etsinlər və Azərbaycan reallıqlarını çatdırsınlar.

Xarici kütləvi informasiya vasitələri ilə sıx təmaslar olmalıdır. Azərbaycan haqqında bəzi hallarda gedən yanlış məlumata dərhal adekvat reaksiya verilməlidir, formal yox. Çünki bir çox hallarda biz bunu görmürük. Ölkəmiz haqqında qəsdən uydurulan, heç bir əsası olmayan şayiələr əgər mən müdaxilə etməsəm təkzib olunmur. Ya bu işlə məşğul olmaq istəmirlər, ya başqa göstərişlər alırlar. Bu gün sirr deyil ki, Azərbaycana qarşı təşkil edilmiş və koordinasiya olunmuş çirkin kampaniya aparılır. Azərbaycan vətəndaşları yaxşı bilirlər ki, bu kampaniyanın mənbəyi və səbəbi nədir. Bir çox səbəblər var, onların arasında bizim milli maraqlara söykənən müstəqil siyasətimizdir və özümüzü ləyaqətli aparmağımızdır. Bəs bu kampaniyaya adekvat cavab verilir, yoxsa yox? Verilmir. Xaricdə bəzi anti-Azərbaycan ünsürlər öz fəaliyyətində, öz çirkin əməllərində, bəyanatlarında yaşadıqları ölkələrin qanunlarını kobudcasına pozurlar, terrora çağırışlar edirlər, konstitusiya quruluşunun dəyişdirilməsinə çalışırlar. Bütün bunlar nəinki Azərbaycanın, bir çox ölkələrin qanunvericiliyində, o cümlədən cinayət məcəlləsində təsbit edilmiş məsələlərdir və ona görə bu cinayəti törətmiş insanlar cinayət məsuliyyətinə cəlb edilməlidir.

Amma bizim xaricdə fəaliyyət göstərən diplomatik nümayəndəliklər bu məsələyə diqqət yetirirlər? Deyə bilərəm ki, yox. Baş qoşmaq, heç kimlə pis olmaq istəmirlər. Bəzi hallarda fəaliyyət göstərdikləri ölkələrdə Azərbaycanın maraqlarını yox, özlərini həmin ölkələrin yüksək vəzifəli nümayəndələrinə yaxşı tərəfdən göstərmək üçün o ölkələrin maraqlarını müdafiə edirlər.

Mən bir daha demək istəyirəm ki, biz bütün ölkələrlə normal dostluq və tərəfdaşlıq münasibətlərinin formalaşmasında əməli addımlar atırıq. Amma bu, o demək deyil ki, öz ölkənin, öz xalqının maraqları kənarda qalsın. Bizim xaricdəki bəzi diplomatlarımız fəaliyyət göstərdikləri ölkələrin elçilərinə çevrilirlər. Buna son qoyulmalıdır. Bu da yanlış kadr siyasətinin təzahürüdür. Bəzi diplomatlar dövlətə xəyanət ediblər, satqınlıq ediblər və bunu gizlətmirlər. Yaşadıqları ölkələrin xüsusi xidmət orqanlarının nəzarətindədirlər. Bizdə kifayət qədər məlumatlar var. Bu gün Azərbaycana qarşı çirkin kampaniya aparan, özünü azərbaycanlı kimi təqdim edən, əslində, ermənilərdən də pis olan ünsürlərin mütləq əksəriyyəti yaşadıqları ölkələrin xüsusi xidmət orqanlarının nəzarətindədir. Onlardan pul və təlimatlar alırlar. Bizdə bu məsələ ilə bağlı kifayət qədər məlumatlar var. Bizim xüsusi xidmət orqanlarımız tərəfdaş ölkələrin xüsusi xidmət orqanlarına dəfələrlə bu haqda məlumatlar vermişlər. Demişlər ki, biz bilirik, filan adamı siz istiqamətləndirirsiz, filan adama siz ev vermisiniz, filan adamın çirkin çıxışları sizin idarənizdə yazılır. Biz bütün bunları bilirik. Bir daha demək istəyirəm ki, bu, o ölkələrin riyakarlığını göstərir. Çünki mən bu haqda dəfələrlə demişəm. Bir tərəfdən bizə dostluq siqnalları göndərilir, üzdə tərəfdaşlıq haqqında sözlər deyilir, amma, əslində, bizə qarşı kampaniya aparılır. Bunun da məqsədi Azərbaycanı zəiflətmək, Azərbaycanı sarsıtmaq, Azərbaycanı ləkələmək, Azərbaycan rəhbərləri haqqında olmayan yalanları yaymaqdır. Ancaq həyat artıq göstərir ki, bunun heç bir əhəmiyyəti yoxdur. Çünki Azərbaycan xalqı hər şeyi yaxşı bilir. Bilir ki, bu gün bizim fəaliyyətimizdə Azərbaycan xalqının maraqları hər şeydən üstündür. Çox güman ki, məhz buna görə bizə qarşı bəzi hallarda belə çirkin üsullardan istifadə edilir. Bilirsiniz, müxtəlif vaxtlarda bu üsulların məzmunu və formaları dəyişirdi. Vaxtilə dırnaqarası "müstəqil" qeyri-hökumət təşkilatları vasitəsilə bizə hücumlar edilirdi. Halbuki hər kəs yaxşı bilir ki, bu qeyri-hökumət təşkilatları hansı mənbələrdən maliyyələşir - böyük dövlətlərin xarici siyasət orqanları tərəfindən maliyyələşir. Bir müddət xarici ölkələrin kütləvi informasiya vasitələri bizə qarşı çirkin kampaniya aparırdı - həm elektron, həm yazılı kütləvi informasiya vasitələri. Biz bu kütləvi informasiya vasitələrinin hansı mənbələrdən maliyyələşdiyini də bilirik. Bunun heç bir faydası olmadı, əksinə, Azərbaycan ictimaiyyəti çox yaxşı dərk edirdi, başa düşürdü ki, bunun məqsədi nədir - Azərbaycanı zəiflətmək, Azərbaycanda xaos yaratmaq, Azərbaycanı 1990-cı illərin əvvəllərinə qaytarmaq və ondan sonra bu imkanlardan istifadə edib öz maraqlarını təmin etmək. Bu keçməyəndə isə növbəti çirkin üsullara əl atıldı. Özlərini azərbaycanlı kimi təqdim etməyə çalışan, ancaq mənəvi cəhətdən eybəcərliyin rəmzinə çevrilmiş antimilli ünsürlər indi xarici xüsusi xidmət orqanlarının rəhbərliyi altında Azərbaycana qarşı çirkin kampaniya aparırlar. Bu, düşünülmüş siyasətdir və əslində, bu siyasətin məqsədi Azərbaycan xalqının əsrlərboyu qoruduğu milli dəyərləri sarsıtmaqdır, bizim mənəvi sütunlarımızı dağıtmaqdır. Çünki Azərbaycan xalqının mentaliteti bunu inkar edir. Heç vaxt bizim tariximizdə belə çirkin üsullardan, yalanlardan, böhtanlardan istifadə edilmirdi. Bu, bizə xaricdən idxal edilir. Ona görə bizim diplomatlarımız buna qarşı fəaliyyət göstərməlidirlər. Yoxsa ki, "dəymə mənə, dəyməyim sənə" prinsipi ilə işləmək olmaz. Əfsuslar olsun ki, bizim Xarici İşlər Nazirliyində son vaxtlar bu prinsip əsas rol oynayır.

Mən demişəm ki, bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır, milli maraqlar tam təmin edilməlidir. Ancaq bir çox hallarda bunun əksini görürük. Görürük ki, razılaşma prinsipi əsas tutulur, milli maraqları kənara qoyub kiminsə xoşuna gəlmək üçün səylər göstərilir. Bu haqda bir çox məlumatlarım var. Ona görə siz bu məsələləri nəzərdə saxlayın. Bizə elə diplomatik kadrlar lazımdır ki, peşəkar, milli ruhda, milli dəyərlərə bağlı olsunlar, ölkəmizi müdafiə edə bilsinlər.

O ki qaldı, bizim xarici siyasətlə əlaqədar əsas prioritetlərimizə, qeyd etməliyəm ki, mən bu prioritetlər haqqında ictimaiyyətə kifayət qədər geniş açıqlama vermişəm. Bu gün bir daha demək istəyirəm, siz yeni nazir kimi bunu bir daha məndən eşitməlisiniz və Azərbaycan ictimaiyyəti də bunu bir daha eşitməlidir. Qonşu ölkələrlə münasibətlərimiz bizim üçün prioritetdir. Bu münasibətlər çox sağlam zəmində qurulubdur. Artıq həyat və hadisələrin gedişatı onu göstərir ki, bu, çox düzgün siyasətdir. Qonşu ölkələr tərəfindən də Azərbaycana qarşı olan siyasət çox müsbətdir. Biz bu siyasəti dostluq, mehriban qonşuluq prinsipləri əsasında qurmuşuq. Beləliklə, heç bir qonşu dövlətlə, təbii ki, Ermənistan istisna olmaqla, bizim heç bir problemimiz yoxdur. Keçmişdən qalan problemlər həll olunub. Bəzi hallarda bəzi ölkələrin dairələri süni şəkildə bəzi problemlər ortaya atmaq istəyirlər. Ancaq bunun da heç bir səmərəsi yoxdur.

Qonşu dövlətlərlə bizim münasibətlərimiz strateji xarakter daşıyır. Biz bir bölgədə yaşayırıq, biz qonşuyuq və bu qonşuluq əbədi olacaqdır. Eyni zamanda, qonşu ölkələrdə yaşayan azərbaycanlılar, əlbəttə, bu münasibətlərdə xüsusi yer tutur və onların rahat yaşaması təbii ki, bizim üçün çox önəmlidir. Bu baxımdan da qonşu ölkələrlə münasibətlər xüsusi əhəmiyyət daşıyır. Həm siyasi, həm iqtisadi, enerji, nəqliyyat, mədəniyyət - bütün sahələrdə bu münasibətləri yüksək qiymətləndirmək olar. Mən deyə bilərəm ki, bizim qonşularımızla münasibətlərimiz nümunəvi xarakter daşıyır. Çünki dünyada gedən proseslər onu göstərir ki, bəzi hallarda qonşular arasında münasibətlər problemli olur.

Bildiyiniz kimi, biz qonşu ölkələrlə üçtərəfli əməkdaşlıq formatında da fəaliyyət göstəririk. Onu da bildirməliyəm ki, bu üçtərəfli formatların təşəbbüskarı da biz olmuşuq. Bu gün bütün qonşularla müxtəlif konfiqurasiyada üçtərəfli əməkdaşlıq formatı icra edilir və bu, həm regional təhlükəsizliyə müsbət təsir göstərir, həm də iqtisadi, enerji, nəqliyyat layihələrinin icrasına gözəl zəmin yaradır. Ona görə, Xarici İşlər Nazirliyinin fəaliyyətində qonşu ölkələrlə münasibətlər bundan sonra da prioritet kimi qalacaq.

Bizim İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrlə də münasibətlərimiz çox yaxşıdır. Azərbaycan müsəlman aləminin bir parçasıdır və beynəlxalq təşkilatlarda biz tərəfdən ən çox dəstək alan ölkələr müsəlman ölkələridir və bizə də müsəlman ölkələrindən ən çox dəstək gəlir. Bu yaxınlarda Ermənistanın növbəti hərbi təxribatı ilə bağlı İslam Əməkdaşlıq Təşkilatı bəyanatla çıxış edib, Azərbaycanın haqlı mövqeyini müdafiə edib və biz bunu yüksək qiymətləndiririk. İslam Əməkdaşlıq Təşkilatının xətti ilə Azərbaycanda bir çox tədbirlər keçirilmişdir. Mən bir çox Zirvə görüşlərində iştirak etmişəm, həmişə öz çıxışlarımda və öz fəaliyyətimdə İslam aləmində əməkdaşlığın, həmrəyliyin inkişafına fikir vermişəm, səylər göstərmişəm. Bəzi müsəlman ölkələri arasında mövcud olan ixtilafların yumşaldılması, ya da ki, aradan qaldırılması üçün Azərbaycan öz səylərini əsirgəmir və bəzi hallarda bu səylər yaxşı nəticələrə gətirib çıxarır. Çünki, ilk növbədə, müsəlman aləmində həmrəylik olmalıdır ki, biz ənənəvi dostlarımızla öz gələcəyimizi sağlam zəmində qura bilək.

Türkdilli dövlətlər bizim üçün qardaş ölkələrdir və bütün türkdilli dövlətlərlə çox gözəl münasibətlərimiz var. Bildiyiniz kimi, hazırda Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik edir. Onu da bildirməliyəm ki, türkdilli ölkələrin Zirvə görüşləri uzun illərdir keçirilir. Azərbaycan və digər postsovet ölkələri müstəqilliyə qovuşduqdan sonra dərhal belə Zirvə görüşləri keçirilir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası təşkilat olaraq Naxçıvan şəhərində yaradılıbdır. Azərbaycanda, Naxçıvan şəhərində keçirilmiş Zirvə görüşlərinin birində belə bir təşkilat yarandı və hazırda təşkilat öz potensialını gücləndirir. Onu da bildirməliyəm ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası da bu yaxınlarda baş vermiş sərhəd münaqişəsi ilə bağlı Azərbaycanı dəstəkləyən açıqlama yaymışdır.

Bizim Avropa İttifaqı ilə əlaqələrimiz də çox möhkəm zəmində qurulub. Avropa İttifaqına üzv doqquz dövlətlə Azərbaycanın strateji tərəfdaşlıq haqqında sənədləri vardır. Bu, Avropa İttifaqının üçdəbir hissəsidir. Hazırda Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş üzərində iş aparılır. Sazişin böyük hissəsi razılaşdırılıb. Siz dərhal bu məsələ ilə məşğul olun və bu gün hələ ki, razılaşdırılmamış məsələlərə fikir verin. Hesab edirəm ki, Azərbaycan maksimum dərəcədə konstruktivlik göstəribdir və bu gün hələ də razılaşdırılmamış məsələlər var. Bizim üçün indiki formada onları qəbul etmək deyə bilərəm ki, çox çətin və əhəmiyyətsiz olacaqdır.

⇨**Ardı səh.3**

# Prezident İlham Əliyev Ceyhun Bayramovu Xarici İşlər naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib

## Prezident İlham Əliyevin çıxışı



⇦ **Əvvəli səh.1**

Çünki mən demişəm, biz ona görə yeni saziş imzalamalıyıq ki, öz maraqlarımızı daha böyük dərəcədə müdafiə edək, təmin edək və qarşı tərəf də həmçinin. Onlar ona görə Azərbaycanla bu sazişi imzalamaq istəyirlər ki, öz maraqlarını müdafiə və təmin etsinlər. Bu da təbiidir. Ancaq gərək bu maraqların uzlaşması olsun. Yəni, biz heç vaxt bizi qane etməyən, yaxud da ki, bizə hansısa problem yarada biləcək sazişə imza atmarıq. Bu, əhəmiyyətsizdir, mənasızdır. Biz Azərbaycan xalqına məlumat verməliyik ki, bunu nə üçün edirik. Biz edirik ki, daha yaxşı şərait olsun, əməkdaşlıq üçün daha yaxşı imkanlar yaransın, xalqımız üçün daha geniş imkanlar açılsın. Yoxsa elə saziş imzalansın deyə sazişə qol çəkmək düzgün olmaz. Bizim mövqeyimiz tam açıqdır. Mən bunu bu gün bütün ictimaiyyətə bildirirəm.

Hesab edirəm ki, kompromis üçün yer var. Ancaq gərək xoş niyyət və qarşılıqlı iradə olsun. Azərbaycan tərəfində bu iradə var. Ümid edirəm ki, bu danışıqlar uğurla davam edəcək. Onu da nəzərə almalıyıq ki, hazırda Avropa Komissiyasının yeni tərkibi formalaşıbdır və biz, əlbəttə, Avropa İttifaqının Azərbaycana münasibətinin statusunu özümüz üçün daha dəqiq müəyyən etməliyik. Biz bəri başdan o mövqedə idik ki, qarşımıza real olmayan hədəflər qoymayaq. Çünki sonra bu hədəflərə çatmayanda məyusluq, qarşılıqlı inamsızlıq yarana bilər. Ona görə qarşıya elə məqsədlər qoymalıyıq ki, biz ona çata bilək və bu məqsədlər bizim maraqlarımıza uyğun olsun. Hesab edirəm ki, bu istiqamətdə gələcək fəaliyyət də uğurlu olacaqdır.

Təbii ki, Amerika Birləşmiş Ştatları ilə bizim münasibətlərimiz çox böyük əhəmiyyət daşıyır və bu münasibətlərin böyük tarixi var. Həm siyasi, iqtisadi, enerji sahələrində, həm də təhlükəsizlik sahəsində çox yaxşı nəticələr var. Azərbaycanın Əfqanıstanda sülhməramlı missiyalarda göstərdiyi səylər Amerika tərəfindən yüksək qiymətləndirilir. Bildiyiniz kimi, Azərbaycan üzərindən çox önəmli nəqliyyat dəhlizi keçir və buna Şimal Nəqliyyat Dəhlizi deyilir. Əslində, bu, hava nəqliyyatıdır və yüklərin təhlükəsiz şəkildə nəql edilməsi bu gün hər bir ölkə üçün çox önəmlidir.

Bizim siyasi münasibətlərimizin inkişafına gəldikdə, hesab edirəm ki, bu gün bu münasibətlər çox yaxşı səviyyədədir. Prezident Trampın mənə göndərdiyi bir çox məktublarda Amerika Birləşmiş Ştatlarının Azərbaycana xoş münasibəti öz əksini tapıb. Son məktubunda qeyd etmişdi ki, bizim iki böyük dövlətimiz birlikdə bundan sonra da çalışacaqdır.

Mənim də Prezident Trampa göndərdiyim məktublarda bizim münasibətlərimizin əhəmiyyəti qeyd olunur və əminəm ki, bundan sonra da bu əlaqələr uğurla inkişaf edəcək. Hesab edirəm ki, bu əlaqələrin gələcəyi çox müsbət olacaqdır.

Bizim strateji investorumuz Böyük Britaniyadır. Böyük Britaniya ilə də bizim çox sıx tərəfdaşlıq münasibətlərimiz var. Əvvəlki dövrdə biz bu münasibətləri, eyni zamanda, Avropa İttifaqı prizmasından təhlil edirdik, dəyərləndirirdik. Amma artıq Böyük Britaniya Avropa İttifaqının üzvü deyil və həm bizim, həm də onların qarşılıqlı marağı gündən-günə artır. Böyük Britaniyanın BP şirkəti bizim strateji tərəfdaşımızdır. Biz keçən il bu tərəfdaşlığın artıq 25 illiyini qeyd etmişdik və bundan sonra ən azı 25-30 il birlikdə çalışacağıq. Əlbəttə ki, bu, ikitərəfli münasibətlərə də müsbət təsir göstərdi. Ancaq hər iki tərəfin fikri ondan ibarətdir ki, biz qeyri-neft sektorunda daha böyük işlər görməliyik. Bir sözlə, bu əlaqələr də bizim üçün çox önəmlidir.

Bildiyiniz kimi, biz hazırda Qoşulmama Hərəkatının sədriyik və bu sədrliyi 120 ölkənin yekdil qərarı ilə qazanmışıq. Bu sədrliyi öz üzərimizə götürəndə mən demişdim ki, bu, formal sədrlik olmayacaqdır. Biz beynəlxalq təşkilatlarda Qoşulmama Hərəkatına üzv ölkələrin maraqlarını, eyni zamanda, beynəlxalq hüququ, ədaləti dəstəkləyəcəyik və bunu əməli işlərdə göstərdik. Pandemiya dövründə bizim təşəbbüsümüzlə Qoşulmama Hərəkatının, eyni zamanda, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşləri keçirildi. Biz Qoşulmama Hərəkatına üzv ölkələrə həm birbaşa, həm də Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə humanitar yardım göstərdik. Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsinin təşəbbüskarı biz olmuşuq və bu təşəbbüsə bildiyiniz kimi, 130-dan çox ölkə qoşuldu. Hesab edirəm ki, bu, bizim növbəti siyasi uğurumuzdur.

Əlbəttə, fəaliyyətinizin əsas hissəsi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə istiqamətləndiriləcək. Bu, bizim üçün əsas məsələdir, bu, milli məsələdir. Son illər görülmüş tədbirlər nəticəsində bütün beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı öz mövqeyini ortaya qoyublar. Əgər münaqişə getdiyi dövrdə BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edibsə, ondan sonrakı dövrdə bütün digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul ediblər. ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, Qoşulmama Hərəkatı, NATO və digər təşkilatlar. İki il bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında paraflanmış "Tərəfdaşlıq Prioritetləri" sənədində də ölkəmizin ərazi bütövlüyü, suverenliyi və sərhədlərin toxunulmazlığı ilə bağlı xüsusi bənd var. Yəni, hüquqi baza tam təmin edilib.

O ki qaldı, münaqişənin həllinə, bizim mövqeyimizdə, qeyd etdiyim kimi, heç bir dəyişiklik ola bilməz. Dağlıq Qarabağ bizim tarixi torpağımızdır və ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bu, birmənalıdır və heç bir ölkə qondarma "Dağlıq Qarabağ respublikası"nı tanımayıb. Orada bu yaxınlarda keçirilmiş qondarma "seçkilər" bunu bir daha təsdiqlədi. Çünki bütün aparıcı dövlətlər, qonşu dövlətlər, aparıcı beynəlxalq təşkilatlar bu "seçkilərin" tanınmaması ilə əlaqədar bəyanatlar vermişlər.

O ki qaldı, danışıqlara, mən bir daha demək istəyirəm ki, biz imitasiya naminə danışıqlar aparmaq, mənasız videokonfranslar keçirmək fikrində deyilik. Bunun mənası olmalıdır. Mən demişəm ki, Minsk qrupunun işi çox fəal olmalıdır və onların mandatı çərçivəsində təkcə təmas xəttində, yaxud da ki, dövlət sərhədində atəşkəsin təmin edilməsi məsələsi yox, mahiyyət üzrə danışıqlar aparılmalıdır və bunun üçün artıq uzun illər ərzində formalaşmış baza var. Ancaq Ermənistan öz destruktiv addımları, qeyri-konstruktiv bəyanatları, sərhəddə və təmas xəttində törətdikləri hərbi cinayətləri ilə bütün bu danışıqlar konstruksiyasını məhv edir. Ermənistan danışıqlar formatını dəyişmək, danışıqların mahiyyətini pozmaq istəyir. Yəni, faktiki olaraq bu gün Ermənistan danışıqlar prosesini dağıdır və bunu hər kəs görür. Sadəcə olaraq, Ermənistan rəhbərliyinin açıqlamalarına fikir vermək kifayətdir. Onların hərbi rəhbərliyi bizi hədələməyə çalışır. Bizi yeni torpaqların işğalı ilə hədələmək istəyir. Ancaq bunlara bu günlərdə verilən dərs hesab edirəm ki, uzun müddət onların yaddaşından silinməyəcək. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Azərbaycan xalqının səbrinin həddi var. Ona görə danışıqlar mahiyyət üzrə aparılmalıdır. Əgər biz görsək ki, bu danışıqlar əhəmiyyətsizdir, onda buna uyğun şəkildə öz addımlarımızı da atacağıq və bəyanatlarımızı da verəcəyik.

Demək olar ki, mən bizim xarici siyasətlə bağlı əsas məsələləri qeyd etdim. Əlbəttə, bu görüş əsnasında bütün başqa məsələləri əhatə etmək vaxt baxımından mümkün deyil. Ancaq əminəm, idarəetmədə əldə etdiyiniz təcrübə sizə imkan verəcək ki, qısa müddət ərzində işin içinə girəsiniz. Dediyim kimi, Azərbaycanın xarici siyasəti ölkəmizin maraqlarını tam təmin etmək üçün öz sözünü deyəcək. Sizə fəaliyyətinizdə uğurlar arzulayıram.

**Nazir Ceyhun Bayramov** dedi:

-Möhtərəm cənab Prezident, ilk növbədə, bu yüksək etimada görə mən Sizə dərin minnətdarlığımı bildirmək istərdim. Cənab Prezident, mən Sizi əmin etmək istərdim ki, bu gün burada səsləndirdiyiniz bütün fikirlər, Xarici İşlər Nazirliyinin fəaliyyətinə dair qeyd etdiyiniz bir sıra nöqsanlar və ölkəmizin strateji maraqlarının təmin edilməsi yönündə əsas istiqamətlər və vəzifələrlə bağlı olaraq sistemli və davamlı fəaliyyətin təmin edilməsi, həmçinin qarşıya qoyulan vəzifələrin öhdəsindən gəlmək üçün əlimdən gələn bütün səyləri əsirgəməyəcəyəm. Siz qeyd etdiyiniz kimi, bu sahə mənim üçün yeni olsa da, qısa müddət ərzində bütün bacarığımı və biliklərimi bu işə yönəldərək, vəziyyəti daha dərindən təhlil edəcək, bir sıra təklifləri diqqətinizə təqdim edəcəyik. Həm Xarici İşlər Nazirliyinin mərkəzi aparatının, eyni zamanda, bütün diplomatik nümayəndəlirimizin və səfirliklərimizin birgə işi təmin ediləcək. Qeyd etdiyiniz kimi, əsas məqsəd ölkəmizin strateji maraqlarının təmin edilməsi, onların qorunmasıdır. Fəaliyyətimizi son illər ərzində ölkəmizin Sizin rəhbərliyinizlə artan beynəlxalq imicinin və nüfuzunun daha da möhkəmləndirilməsi, beynəlxalq aləmdə Azərbaycanın sözünün daha da gur eşidilməsi istiqamətində quracağıq.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizə təşəkkürümü bildirmək istərdim ki, məni Təhsil naziri təyin etdiyiniz müddət ərzində bu sahəyə olan diqqət və qayğınızı bütün təhsil işçiləri hər zaman hiss etmişlər. Bu müddət ərzində Sizin imzaladığınız çoxsaylı sərəncamlar və dövlət proqramları nəticəsində yüzlərlə yeni məktəb binaları tikilmiş, təhsil infrastrukturu müasirləşdirilmiş, təhsil işçilərinin əməkhaqları yüksəldilmiş, onların sosial vəziyyəti davamlı şəkildə yaxşılaşdırılmış, tələbə yerlərinin sayı artırılmışdır. Fürsətdən istifadə edərək, bütün təhsil ictimaiyyəti adından buna görə Sizə dərin minnətdarlığımı bildirmək istərdim. Bir daha qeyd etmək istərdim ki, mənə göstərdiyiniz yüksək etimadı doğrultmaq üçün əlimdən gələni edəcəyəm. Bütün səylərimi qarşıya qoyulan vəzifələrin icrasına, Sizin qeyd etdiyiniz məsələlərin sistemli şəkildə həllinə yönəldəcəyəm.

**Prezident İlham Əliyev:** Sağ olun, təbrik edirəm və sizə uğurlar arzulayıram.

# Bakı İdarəetmə və Texnologiya Kollecinin, Bakı Qida Sənayesi Kollecinin, Bakı Dövlət Sosial-İqtisadi Kollecinin, Bakı Humanitar Kollecinin, Bakı Dövlət İqtisadiyyat və Humanitar Kollecinin, Sumqayıt Musiqi Kollecinin, Gəncə Dövlət Regional Kollecinin, Lənkəran Dövlət Humanitar Kollecinin, Şəki Dövlət Regional Kollecinin yenidən təşkili və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı

"Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanının 2.5.2-ci yarımbəndinə uyğun olaraq, orta ixtisas təhsili müəssisələrinin şəbəkəsinin optimallaşdırılması, idarəetmənin, maliyyələşdirmənin, kadr hazırlığının səmərəsinin və keyfiyyətinin yüksəldilməsi məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Bakı İdarəetmə və Texnologiya Kolleci Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində publik hüquqi şəxs statusuna malik olan Sənaye və Texnologiya Kollecinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**2.** Bakı Qida Sənayesi Kolleci Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində publik hüquqi şəxs statusuna malik olan Qida Sənayesi Kollecinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**3.** Bakı Dövlət Sosial-İqtisadi Kolleci Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində publik hüquqi şəxs statusuna malik olan Sosial-İqtisadi Kollecə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**4.** Bakı Humanitar Kolleci Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində publik hüquqi şəxs statusuna malik olan Humanitar Kollecə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**5.** Bakı Dövlət İqtisadiyyat və Humanitar Kolleci Bakı Dövlət Universitetinin nəzdində publik hüquqi şəxs statusuna malik olan İqtisadiyyat və Humanitar Kollecə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**6.** Sumqayıt Musiqi Kolleci Azərbaycan Milli Konservatoriyasının nəzdində publik hüquqi şəxs statusuna malik olan Sumqayıt Musiqi Kollecinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**7.** Gəncə Musiqi Kollecinin Gəncə Dövlət Regional Kollecinə qoşulması formasında yenidən təşkili yolu ilə Gəncə Dövlət Universitetinin nəzdində publik hüquqi şəxs statusuna malik olan Regional Kollec yaradılsın.

**8.** Lənkəran Dövlət Humanitar Kolleci Lənkəran Dövlət Universitetinin nəzdində publik hüquqi şəxs statusuna malik olan Sosial və Aqrar-Texnoloji Kollecə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**9.** Şəki Dövlət Texniki Kollecinin Şəki Dövlət Regional Kollecinə qoşulması formasında yenidən təşkili yolu ilə publik hüquqi şəxs statusuna malik olan Şəki Dövlət Regional Kolleci yaradılsın.

**10.** Bu Qərarın 1-9-cu hissələri ilə yaradılan publik hüquqi şəxslərin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

10.1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

10.1.1. publik hüquqi şəxsin yenidən təşkili və ləğv edilməsi;

10.2. Azərbaycan Respublikasının Təhsil Nazirliyinə:

10.2.1. bu Qərarın 10.1-ci bəndində qeyd edilənlər istisna olunmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsi ilə publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

**11.** Bu Qərarın 1-9-cu hissələri ilə yaradılan publik hüquqi şəxslər "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək, Bakı İdarəetmə və Texnologiya Kolleci, Bakı Qida Sənayesi Kolleci, Bakı Dövlət Sosial-İqtisadi Kolleci, Bakı Humanitar Kolleci, Bakı Dövlət İqtisadiyyat və Humanitar Kolleci, Sumqayıt Musiqi Kolleci, Gəncə Musiqi Kolleci, Gəncə Dövlət Regional Kolleci, Lənkəran Dövlət Humanitar Kolleci, Şəki Dövlət Texniki Kolleci, Şəki Dövlət Regional Kolleci öz fəaliyyətlərini davam etdirsinlər.

**12.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi bu Qərarın icrası ilə əlaqədar qənaət edilən maliyyə vəsaitinin kolleclərin infrastrukturunun gücləndirilməsinə yönəldilməsini, həmçinin azad olmuş maddi-texniki bazanın təhsil sisteminin məqsədləri üçün istifadə olunmasını təmin etsin.

**13.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 745, № 10, maddə 969, № 12, maddələr 1241, 1245; 2012, № 3, maddə 257, № 4, maddə 399, № 6, maddələr 633, 634, № 12, maddə 1346; 2013, № 6, maddə 775, № 9, maddə 1130; 2014, № 1, maddə 72, № 2, maddə 214, № 6, maddə 751, № 7, maddə 907, № 9, maddə 1120; 2015, № 3, maddə 336, № 6, maddə 807, № 8, maddə 966, № 10, maddələr 1226, 1229, № 12, maddə 1571; 2016, № 1, maddə 176, № 2 (II kitab), maddə 373, № 3, maddə 622, № 5, maddə 957, № 6, maddə 1209, № 10, maddə 1723, № 11, maddə 1919; 2017, № 2, maddələr 285, 302, 319, № 6, maddələr 1223, 1226; 2018, № 11, maddələr 2429, 2456, № 12 (II kitab), maddələr 2739, 2759; 2019, № 11, maddə 1853; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 24 mart tarixli 107 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın "Orta ixtisas təhsili müəssisələri" bölməsində aşağıdakı dəyişikliklər edilsin:

13.1. 11-ci, 12-ci, 13-cü, 15-ci, 18-ci, 21-ci, 22-ci və 25-ci hissələr aşağıdakı redaksiyada verilsin:

"11. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kolleci

12. Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Qida Sənayesi Kolleci

13. Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Sosial-İqtisadi Kollec

15. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Humanitar Kollec

18. Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kollec

21. Azərbaycan Milli Konservatoriyasının nəzdində Sumqayıt Musiqi Kolleci

22. Gəncə Dövlət Universitetinin nəzdində Regional Kollec

25. Lənkəran Dövlət Universitetinin nəzdində Sosial və Aqrar-Texnoloji Kollec".

13.2. 24-cü və 27-ci hissələr ləğv edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş Naziri**

*Bakı şəhəri, 10 iyul 2020-ci il*

# Təhsil naziri “Birincilərin birinciləri” ilə görüşüb



İyulun 10-da Təhsil naziri Ceyhun Bayramov 2019-2020-ci tədris ili üzrə keçirilmiş Respublika fənn olimpiadalarında hər fənn üzrə ən yüksək nəticə göstərən 10 qızıl medalçı — “Birincilərin birinciləri” nominasiyasına layiq görülən məktəblilərlə onlayn formatda görüş keçirib.

“Microsoft Teams” platforması üzərindən təşkil edilən görüşdə Təhsil naziri Ceyhun Bayramov qalibləri təbrik edərək pandemiya dövründə yaşanan çətin günlərdə onların qazandıqları uğurun çox sevindirici hal olduğunu deyib.

Şagirdlərin uğurlarında yüksək fədakarlıq göstərən müəllimlərin roluna da toxunan Təhsil naziri bu yaxınlarda Azərbaycan təhsilində özünəməxsus əməyi olan Naqif Nəbiyevin vaxtsız vəfatından hər kəsin kədərləndiyini qeyd edib və bunu təhsil ictimaiyyəti üçün böyük itki kimi qiymətləndirib. Nazir Bakı Dövlət Universitetinin fizika fakültəsinin Nanomaterialların kimyəvi fizikası kafedrasının dosenti, Respublika Fizika Olimpiadasının sədri, istedadlı alim və müəllim olan Naqif Nəbiyevin bir çox məktəblinin fizikadan respublika və beynəlxalq olimpiadalara seçimi və hazırlıq prosesində əvəzsiz xidmətlərini də sadalayıb. Təhsil naziri Naqif Nəbiyevin ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı ifadə edib, Allahdan ona rəhmət diləyib.

Ceyhun Bayramov çıxışının sonunda pandemiya dövründə hər kəsin təhsilin əlçatanlığı və davamlılığının təmin edilməsi istiqamətində səy göstərdiyini vurğulayıb. Nazir bütün qalibləri bir daha təbrik edərək onlara uğurlar arzulayıb və bildirib ki, ölkəmizin bu cür parlaq zəkaya sahib övladlarının olması gələcəyə inamı daha da artırır.

## Rusiyada təhsil imkanı

Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Əlaqələr Universiteti 2020-2021-ci tədris ili üzrə Azərbaycan vətəndaşları üçün tələbə qəbulu elan edir.

Bakalavriat səviyyəsi üzrə elan edilən təhsil proqramı çərçivəsində tədris rus dilindədir. Təhsil müddəti isə 4 il nəzərdə tutulub.

Namizədlər üçün son müraciət tarixi 16 iyul 2020-ci ildir.

Müsabiqədə iştirak etmək istəyən abituriyentlər qeyd olunan sənədlərin surətlərini *info@dim.gov.az* elektron poçt ünvanına göndərməklə qeydiyyatdan keçməlidirlər.

Ətraflı məlumatı elan vasitəsilə əldə edə bilərsiniz.

## İlin sonuna 102 məktəb binası

2020-ci ilin sonuna kimi Təhsil Nazirliyi tərəfindən təmir-tikinti işləri yekunlaşdırılmış 102 məktəb binası şagirdlərin istifadəsinə veriləcək. Onlardan 29-u yeni tikilən, 13-ü əsaslı təmir olunan, 60-ı isə modul tipli məktəbdir.

Modul tipli məktəblərin Quba, Qusar, Xaçmaz, İsmayıllı, Ağsu, Şamaxı, Şəki, Tovuz, Gədəbəy, Bərdə, Neftçala, Cəlilabad, Lerik, Astara, Goranboy, Xızı, Samux, İmişli, Füzuli və Ağdamda quraşdırılması nəzərdə tutulub.

## “Rəqəmsal bacarıqlar” layihəsi üzrə tədris ilinin yekununa dair tədbir

İyulun 10-da “Rəqəmsal bacarıqlar” layihəsi üzrə 2019-2020-ci tədris ilinin yekununa dair onlayn tədbir keçirilib. “Virtual məktəb” platforması üzərindən canlı yayımlanan tədbirə Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, “Rəqəmsal bacarıqlar” layihəsinin rəhbəri Nilufər Rəhimova, layihənin beynəlxalq “Alqoritmika” şirkəti tərəfindən rəhbəri Anna Burda, nazirliyin əməkdaşları, müəllimlər, məktəb direktorları olmaqla ümumilikdə 600-dən çox iştirakçı qatılıb.

Tədbirdə çıxış edən Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva “Rəqəmsal bacarıqlar” layihəsinin təhsil prosesində müasir informasiya texnologiyalarının tətbiqi baxımından əhəmiyyətini qeyd edib. Məhəbbət Vəliyeva layihənin məqsədlərindən söz açaraq bildirib ki, layihə şagirdlərin gələcəyi üçün yararlı olan alqoritmik düşüncə və məntiqin inkişafına, yeni texnologiya və rəqəmsal bacarıqları təcrübədə öyrənməyə, proqramlaşdırmanın sirlərinə bələd olmağa imkan yaradır.

Nazir müavini həmçinin pandemiya dövründə təhsilin əlçatanlığı və davamlılığının təmin olunması məqsədilə Təhsil Nazirliyi tərəfindən görülən işlər barədə də məlumat verib.

Daha sonra çıxış edən “Rəqəmsal bacarıqlar” layihəsinin rəhbəri Nilufər Rəhimova layihə çərçivəsində görülən işlər barədə ümumi məlumat verib, növbəti tədris ili üçün hədəfləri açıqlayıb. Nilufər Rəhimovanın sözlərinə görə, 2020-2021-ci tədris ilindən sözügedən layihənin əhatəsi genişləndiriləcək, Bakı, Sumqayıt, Gəncə, Biləsuvar, Şamaxı, Şirvan, Şəki, Lənkəran və Mingəçevir olmaqla ümumilikdə 9 şəhəri əhatə edəcək.

Layihə rəhbəri bildirib ki, pandemiya dövründə “Rəqəmsal bacarıqlar” layihəsi çərçivəsində tədris olunan informatika fənni üzrə buraxılmış mövzulara əsasən ümumilikdə 72 teledərs ictimaiyyətə təqdim olunub. Bununla yanaşı olaraq, Təhsil Nazirliyi və beynəlxalq “Alqoritmika” şirkəti ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən layihə üzrə ümumilikdə 3-8 sinifləri əhatə edən 197 videodərs təqdim olunub. Hazırda “Virtual məktəb” platformasında layihə çərçivəsində şagird və müəllimlər üçün interaktiv vebinarlar davam edirilir.

Çıxış edən layihənin beynəlxalq “Alqoritmika” şirkəti tərəfindən rəhbəri Anna Burda da öz növbəsində layihənin uğurlarında müəllim və məktəb direktorlarının xüsusi rolunu vurğulayıb, hər kəsə təşəkkür edib.

Daha sonra layihə çərçivəsində şagirdlər arasında təşkil edilən “Novruz” yarışmasının qalibləri mükafatlandırılıb. Bildirilib ki, yarışmada Bakı, Sumqayıt, Gəncə və Şamaxıdan ümumilikdə 100-dən çox şagird iştirak edib.

Həmçinin 2019-2020-ci tədris ilində layihə üzrə ən yaxşı nəticə göstərən 40 ən yaxşı müəllim və 22 məktəb direktoru diplomla mükafatlandırılıb.

# Tvinninq layihəsinin yekun konfransı keçirilib

Təhsil Nazirliyi və Avropa İttifaqının birgə təşkilatçılığı ilə “Azərbaycanda ali təhsil sisteminin gücləndirilməsinə dəstək” adlı tvinninq layihəsinin yekun konfransı keçirilib. Onlayn formatda keçirilən konfransın məqsədi son iki ildə həyata keçirilən layihənin nəticələrini ümumiləşdirmək və layihə çərçivəsində ölkənin ali təhsil sisteminin inkişafı istiqamətində görülən işlər barədə geniş ictimaiyyəti məlumatlandırmaqdan ibarət olub.



Konfransı giriş sözü ilə açan Təhsil nazirinin müavini Firudin Qurbanov son illər Azərbaycanın ali təhsil sistemində aparılan əsaslı islahatlar və ali təhsilin əlçatanlığı üçün imkanların da genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib. Nazir müavini hazırda ölkəmizin ali təhsil pilləsinin 2013-cü ildə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”na və Avropa Ali Təhsil Məkanı çərçivəsində hazırlanmış tövsiyələrə, bu sahədə müsbət dünya təcrübəsinə uyğun olaraq inkişaf etdirildiyini bildirib. “2007-2015-ci illərdə Azərbaycan Respublikası gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın uğurlu icrası barədə danışan Firudin Qurbanov “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın əsas hədəflərini diqqətə çatdırıb.

Konfransda çıxış edən Avropa İttifaqının Bakı Nümayəndəliyinin rəhbəri, səfir Kestutis Yankauskas Avropa İttifaqı ilə ölkəmiz arasında əməkdaşlıqda təhsil sahəsinə xüsusi önəm verildiyini bildirib. Səfir “Azərbaycanda ali təhsil sisteminin gücləndirilməsinə dəstək” adlı tvinninq layihəsinin uğurla başa çatması münasibətilə tədbir iştirakçılarını təbrik edib.

Tədbirin moderatoru olan Azərbaycan üzrə layihə rəhbəri, Mingəçevir Dövlət Universitetinin rektoru Şahin Bayramov iki ildən artıq müddətdə icra edilən layihənin həyata keçirilməsində davamlı dəstəyə görə Təhsil Nazirliyinə, Avropa İttifaqının Bakı Nümayəndəliyinə, Avropalı tərəfdaşlara, pilot universitetlərə, eləcə də müvafiq dövlət və özəl qurumlara təşəkkürünü bildirib.

Sonra Fransa üzrə layihə rəhbəri Bruno Kurval, Litva üzrə layihə rəhbəri Giedrius Viliunas, Latviya üzrə layihə rəhbəri Baiba Ramina, layihənin Rezident Müşaviri Liza Baydanova, Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini Yaqub Piriyev çıxış edərək layihə çərçivəsində görülən işlərdən və layihənin ölkənin ali təhsil sahəsində həyata keçirilən islahatlara verdiyi töhfələrdən bəhs ediblər.

Daha sonra Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev, Azərbaycan Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlı, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov, Bakı Mühəndislik Universitetinin rektoru Havar Məmmədov və Sumqayıt Dövlət Universitetinin rektoru Elxan Hüseynov tvinninq layihəsinin pilot universitetlər üçün faydalarından, görülmüş işlərin real nəticələrindən və müvafiq istiqamətlər üzrə davamlılığın təmin edilməsi üçün atılacaq addımlardan söz açıblar.

Tədbir iştirakçıları layihənin uğurla icra olunmasından məmnunluqlarını ifadə edib və layihə çərçivəsində yaradılmış əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğulayıblar.

Qeyd edək ki, icrasına 2018-ci ilin aprel ayında başlanılan sözügedən layihə Təhsil Nazirliyi, Fransa, Litva və Latviyanın təmsil olunduğu konsorsium tərəfindən həyata keçirilib. Layihə 2015-2017-ci illərdə “Ali təhsil sisteminin Avropa Ali Təhsil Məkanına inteqrasiyasının daha da gücləndirilməsi istiqamətində Azərbaycan Respublikasının Təhsil Nazirliyinə dəstək” adlı tvinninq layihəsinin davamı olaraq icra olunub. Son iki il ərzində icra edilmiş layihənin əsas məqsədi Azərbaycanın ali təhsil sistemini kompetensiyalara, təlim nəticələrinə və tələbəyönümlü yanaşmaya uyğunlaşdırmaqla daha da inkişaf etdirməkdən ibarət olub.

# Tətil dövründə şagirdlər üçün məktəbdənkənar fəaliyyət




Təhsil Nazirliyinin təşəbbüsü ilə yeni televiziya proqramının yayımına start verilib. “Mədəniyyət” telekanalında “Tətil vaxtı” adı ilə efirə gedən veriliş məktəblilərin yay tətili dövründə həftənin II və VI günləri saat 12.20-də yayımlanacaq.

Yeni verilişin hazırlanması koronavirus infeksiyasının ölkəmizdə yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə elan edilmiş karantin rejimi ilə əlaqədar məktəblilərin yay tətili dövründə ev şəraitində asudə vaxtlarının səmərəli keçirilməsinə nail olunması, onların fiziki hazırlığı və yaradıcılıq imkanlarının inkişaf etdirilməsini təmin etmək məqsədi daşıyır.

Proqramda məktəbdənkənar təhsil müəssisələrinin məşqçi-müəllim və dərnək rəhbərlərinin iştirakı ilə məktəblilərin fiziki sağlamlıqlarının təmin edilməsi üçün idman məşqləri, yaradıcılıq qabiliyyətlərinin inkişafı üçün rəqs, rəsm, bacarıqlı əllər, bədii qiraət, ifa, biçmə-tikmə və s. sahələr üzrə dərslər təqdim edilir.

Eyni zamanda şagirdlərin yay aylarını səmərəli və maraqlı keçirməsini təmin etmək məqsədilə “Virtual məktəb” platforması üzərindən məktəblilər üçün təşkil olunan məktəbdənkənar dərnəklərin fəaliyyəti davam etdirilir. İyulun 6-dan şagirdlərin maraqlarına uyğun təşkil edilən “Bədii qiraət”, “Şahmat”, “Xalq çalğı alətləri”, “Rəqs”, “Toxuma əl işləri”, “Bacarıqlı əllər” kimi 6 fərqli istiqamət üzrə dərnəklərə səkkiz minə yaxın məktəbli qoşulub.

Xatırladaq ki, hər gün saat 15:00-da keçirilən tədbirlər barədə ətraflı məlumat “Virtual məktəb”in ümumi şagird qruplarında həftəlik olaraq qeyd olunur. Şagirdlər tədbirin linkinə keçid etməklə qeydiyyatdan keçmədən canlı görüşə qoşula bilir. Ödənişsiz formada təşkil olunan dərnəklərdə Azərbaycan və rus bölmələri üzrə bütün şagirdlər iştirak etmək imkanı əldə edir. Dərnəklərdə real vaxt rejimində iştirak edə bilməyən şagirdlər üçün dərslərin video yazısı “Microsoft Stream”in “Virtual məktəb” kanalında yerləşdirilir və dərsləri təkrar izləmək imkanı yaradılır.

## Müəllimlər üçün kurikulum üzrə sınaq imtahanı

“Virtual məktəb”də müəllimlər üçün kurikulum üzrə sınaq imtahanı keçiriləcək. Sınaq imtahanı “Virtual məktəb”də Azərbaycan və rus bölmələri üzrə müəllimlər üçün artıq bir aydır keçirilən “Kurikulumun tədrisi üzrə vebinarlar”dakı mövzuları əhatə edəcək. Xatırladaq ki, vebinarların keçirilməsində məqsəd müəllimlərə işə qəbul, sertifikasiya və diaqnostik qiymətləndirmə üzrə aparılacaq imtahanlara hazırlığa dəstək göstərməkdir.

Azərbaycan və rus bölmələri üzrə təşkil olunacaq sınaq imtahanlarının keçid linkləri iyulun 14-dən etibarən 10 gün müddətində “Virtual məktəb”in müəllim region qruplarında aktiv olacaq.

20 sualdan ibarət olacaq sınaq imtahanında hər sualın düzgün cavabı bir balla qiymətləndiriləcək, səhv cavablar isə ümumi nəticəyə təsir göstərməyəcək. Sınaq imtahanının sonunda müəllimlər öz nəticələri ilə tanış ola biləcəklər. Hər müəllim üçün sınaq imtahanında bir dəfə iştirak etmək hüququ veriləcək.

Qeyd edək ki, iyulun 24-də “Kurikulumun tədrisi üzrə vebinarlar”ın növbəti buraxılışında sınaq imtahanında təqdim edilən sualların düzgün cavabları veriləcək və nəticələr müzakirə olunacaq.

# BMU yüksək ixtisaslı kadrların hazırlanmasında töhfəsini verməkdədir

## Bakı Mühəndislik Universitetində onlayn "Məzun günü"

Bakı Mühəndislik Universitetində (BMU) onlayn "Məzun günü" keçirilib. Tədbir universitetin rəsmi "Youtube" kanalı vasitəsilə canlı olaraq yayımlanıb.





BMU-nun rektoru, professor Havar Məmmədov koronavirus pandemiyası ilə əlaqədar tədbirin onlayn formada keçirildiyini diqqətə çatdırıb. Rektor Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə gənclərə göstərilən xüsusi diqqət və qayğıdan bəhs edib, onlarla bağlı həyata keçirilən dövlət proqramlarının rolunu vurğulayıb.

H.Məmmədov cari tədris ilində BMU-dan bakalavr pilləsi üzrə 795, magistr pilləsi üzrə isə 88 nəfərin məzun olduğunu bildirib. Bakalavr məzunları arasında 91, magistr məzunları arasında 16 nəfərin ali təhsil müəssisəsini fərqlənmə diplomu ilə bitirdiyini söyləyən rektor bu yüksək göstəriciləri tədrisin keyfiyyətinin nəticəsi kimi qiymətləndirib. H.Məmmədov 26 nəfər məzunun isə bir sıra xarici ölkələrin, o cümlədən Gürcüstan, Rusiya, Misir, Çad, Peru, Qazaxıstan, Pakistan, İraq, Myanma, İndoneziya və Çin vətəndaşları olduğunu qeyd edib.

Rektor universitetin maddi-texniki bazasından istifadə etməklə burada qazanılan bilik və bacarıqların məzunların gələcəkdə uğurla fəaliyyət göstərməsinə əsas yaradacağını deyib. O, cari tədris ilində BMU-nun magistratura səviyyəsi üzrə qəbul planında yüksək göstəricilərin qeydə alındığını və qəbul planının 95 faizdən artıq dolduğunu sözlərinə əlavə edib.

BMU-nun Himayəçilər Şurasının sədri, Təhsil nazirinin müavini İdris İsayev bu əlamətdar gün münasibətilə Təhsil Nazirliyi adından bütün məzunları, universitetin professor-müəllim heyətini ürəkdən təbrik edib, məzunlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

İ.İsayev Prezident İlham Əliyevin diqqət və qayğısı, eləcə də Heydər Əliyev Fondunun dəstəyi ilə ölkəmizdə təhsilin müasir tələblər səviyyəsində inkişafını təmin edən, beynəlxalq təhsil sisteminə inteqrasiyaya geniş imkanlar yaradan, təhsilin inkişafı ilə bağlı bir sıra qəbul edilmiş proqramların və strategiyaların reallaşdırılması nəticəsində ölkəmizdə tədris infrastrukturunun müasirləşdi-



yini, təhsilin keyfiyyətinin yaxşılaşdığını vurğulayıb. Nazir müavini Prezident İlham Əliyevin gənclərə verdiyi tövsiyələri xatırladaraq onların yaxşı və təminatlı gələcəyini müəyyən edən əsas amilin bilik və bacarıq olduğunu bildirib.

Nazirlik rəsmisi ölkəmizin müstəqilliyi, taleyi, xoşbəxtliyi, uzunmüddətli inkişafının gənclərdən asılı olduğunu, bu baxımdan BMU məzunlarını şanslı hesab etdiyini deyib. BMU-nun Azərbaycanın aparıcı ali təhsil müəssisələrindən biri olduğunu vurğulayan İ.İsayev burada təhsilin səviyyəsinin çox yüksək olmasını, eləcə də tələbələr üçün əlverişli təhsil mühitinin yaradıldığını qeyd edib. Bildirib ki, məzun statusu almış tələbələrin 10%-dən çoxunun təhsillərini fərqlənmə diplomu ilə bitirməsi, həmçinin məzunların böyük əksəriyyətinin birinci ildə artıq əmək fəaliyyətinə başlaması BMU-da təhsilin keyfiyyət göstəricilərindən xəbər verir.

Məzunlar üçün yeni dövrün başlandığını qeyd edən nazir müavini onların universitetdə aldıqları bilik və bacarıqların həyatlarının növbəti mərhələlərində xüsusi rol oynayacağına əminliyini ifadə edib. Qeyd edib ki, müasir idarəetmə sisteminə malik olan BMU ölkə iqtisadiyyatına yüksək ixtisaslı kadrların hazırlanması istiqamətində öz əhəmiyyətli töhfəsini verməkdədir.

Sonra BMU-nun memarlıq və inşaat fakültəsinin dekanı, dosent Afər Əlifov, iqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, dosent Mayis Əzizov, mühəndislik fakültəsinin dekanı, dosent Hüseyn Mirzəyev, pedaqoji fakültə dekanı, dosent Elşad Abdullayev təmsil etdikləri fakültələrin fəaliyyəti və uğurları haqqında məlumat verib, eyni zamanda 4 illik bakalavr təhsili müddətində ən yüksək göstərici əldə etmiş fakültə birincilərini elan ediblər.

Daha sonra memarlıq və inşaat fakültəsinin birincisi Məhərrəm Cəbrayılov, iqtisadiyyat və idarəetmə fakültəsinin birincisi Alişa İzabakarova, mühəndislik fakültəsinin birincisi Toğrul Abbaslı çıxış ediblər.

BMU-nu 99.38 balla bitirən universitet, eyni zamanda pedaqoji fakültənin birincisi Arzu Məmmədəliyeva məzun kötüyünə öz adını həkk edib və ürək sözlərini çatdırıb. O, pandemiya vəziyyəti ilə əlaqədar olaraq bütün məzunların adından məzun papağını havaya qaldırıb.

Tədbir məzunların bakalavr təhsil həyatını əks etdirən videoçarx və onların adlarının nümayişi ilə başa çatıb.

## "Fibonacci" intellektual yarışının I mövsümü yekunlaşıb

Məktəblilərarası onlayn "Fibonacci" intellektual yarışının I mövsümü başa çatıb. I mövsüm 8 seçim oyunundan ibarət olub. Hər seçim oyununda Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu üzrə təxminən 600-800 aralığında şagird, 80-100 arası komanda iştirak edib.

Mövsümün final turunda 35 komanda yarışıb. Oyunun nəticələrinə əsasən, I yeri Təhsil Nazirliyinin tabeliyindəki akademik Zərifə Əliyeva adına liseyin komandası ("Tesla"), II yeri Bakı Avropa liseyinin komandası ("Fortuna"), III yeri isə Bakı şəhəri 287 nömrəli tam orta məktəbin komandası ("Zəkalar") tutub.

Uşaqların oyuna marağı nəzərə alınaraq, finala keçməyən komandalar üçün də iyulun 7-də həvəsləndirici final oyunu təşkil edilib. 27 komandanın yarışdığı oyunun nəticələrinə görə, Təhsil Nazirliyinin tabeliyindəki Humanitar fənlər təmayüllü məktəb-liseyin komandası ("Proqress") I, Bakı şəhəri 264 nömrəli tam orta məktəbin komandası ("Kingsman") II, 62 nömrəli tam orta məktəbin komandası ("Qızıl Alma") III yerə layiq görülüb.

Hər iki oyunun qalib komandalarına Təhsil Nazirliyi tərəfindən hədiyyələr təqdim olunacaq.

"Fibonacci" intellektual yarışının II mövsümünə sentyabr ayında start veriləcək.

Bildirək ki, onlayn formatda V-VII sinif şagirdləri arasında keçirilən "Nə? Harada? Nə zaman?" yarışması da davam etdirilir.

Qeyd edək ki, bu oyunların keçirilməsində əsas məqsəd koronavirus infeksiyası ilə bağlı tətbiq edilən karantin rejimi ilə əlaqədar uşaqların ev şəraitində asudə vaxtlarının səmərəli və faydalı təşkili, evdə olduqları müddətdə bilik və bacarıqlarından əlavə, məntiqi düşüncə və dünyagörüşünün də inkişafına nail olmaları üçün imkan yaratmaqdır.

## Məzunlar üçün yaradılan iş imkanları

Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin "Veb dizayner və proqram təminatçısı" ixtisasının məzunları ilə virtual görüşlər keçirilib.

Azərbaycan Respublikası Təhsil şəbəkəsinin internet operatoru olan "AzEduNet" və "Edumedia-Azərbaycan" şirkətlərinin mütəxəssisləri ilə birlikdə baş tutan görüşlər "Microsoft Teams" platforması üzərindən təşkil edilib. Əsas məqsəd qeyd olunan şirkətlər tərəfindən Mərkəzin təhsilalanları ilə ümumi fəaliyyət istiqamətlərinə dair iş təcrübələrini bölüşmək, təhsilalanların tədris ili ərzində mənimsədikləri bilik və bacarıqlara dair məlumatlanmaq, şirkət üçün seçim meyarlarını müəyyən etmək və təhsil müddəti ərzində yüksək nəticə göstərən təhsilalanlara iş imkanları yaratmaqdan ibarət olub.

Qeyd edək ki, görüşlər zamanı sözügedən şirkətlərin mütəxəssisləri ilə Mərkəzin təhsilalanları arasında yeni və interaktiv xidmət və həllərə, İKT xidmətlərinə, müasir avadanlıqların effektivliyi və funksionallığına dair müzakirələr aparılıb. Həmçinin məzunların sualları cavablandırılıb.

## Sənaye ixtisasları üzrə pilot peşə təhsili proqramlarına qəbul davam edir

Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin pilot peşə təhsil proqramlarına 2020-2021-ci tədris ili üzrə tələbə qəbulu davam edir. "Avtomobil diaqnostikası və təmiri ustası", "Veb dizayner və proqram təminatçısı", "Torna və frezer dəzgahların operatoru", "Sənayedə quraşdırma işləri üzrə usta", "Elektronika ustası", "Elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru", "İnşaat ustası", "Mebel ustası", "Avtomatika üzrə usta" ixtisasları üzrə texniki peşə, "Nəqliyyat vasitələrinin texniki istismarı" və "Kompüter sistemlərində proqram təminatçısı" ixtisasları üzrə isə yüksək texniki peşə, subbakalavr təhsili almaq istəyən şəxslər iyulun 24-dək link vasitəsilə *(https://bit.ly/3j034Kf)* elektron qeydiyyatdan keçməlidirlər.

Müsabiqə elektron ərizələrin qiymətləndirilməsi və müsahibə mərhələlərindən ibarətdir. Qeydiyyatdan keçmiş namizədlərin elektron ərizələrindəki məlumatların uyğunluğu yoxlanıldıqdan sonra müvafiq tələblərə (tam orta təhsil və ixtisas fənlər üzrə yüksək qiyməti olan namizədlər) cavab verən şəxslər növbəti mərhələyə dəvət ediləcəklər. İkinci mərhələdə iştirak edən namizədlərə seçdikləri ixtisaslar üzrə sual və tapşırıqlar təqdim ediləcək.

Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin pilot proqramları çərçivəsində tam orta təhsil bazasından 1 illik texniki peşə təhsili və 3 illik yüksək texniki peşə təhsili, subbakalavr səviyyəsinə yiyələnmək mümkündür.

Daha ətraflı məlumatla müəssisənin rəsmi internet səhifəsindən *(http://bii.edu.az)* tanış olmaq mümkündür.



## Müəllimlərin işə qəbulu üzrə elektron ərizələrin qeydiyyatı başlayıb

İyulun 16-dan Təhsil Nazirliyi sisteminə daxil olan ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu üzrə elektron ərizələrin qeydiyyatı başlayır. Bu proses iyulun 25-dək (son tarix daxil olmaqla) davam edəcək.

Müsabiqədə ali və orta ixtisas təhsili müəssisələrinin pedaqoji ixtisaslar üzrə bitirmiş, dövlət nümunəli təhsil sənədi (diplom) almış və ya xarici ölkədə aldığı ali təhsil haqqında sənədi tanınmış Azərbaycan Respublikasının vətəndaşları və ya Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə verilmiş şəxslər iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək istəyən namizədlər *miq.edu.az* saytında qeydiyyatdan keçməlidirlər.

Hər il olduğu kimi, müəllimlərin işə qəbulu üzrə müsabiqə 4 mərhələdə (elektron ərizədəki göstəricilərin qiymətləndirilməsi, test imtahanı, vakant yerlərin seçilməsi və müsahibə) təşkil ediləcək. Test imtahanı mərhələsində namizədə ixtisas, tədris metodikası və təlim strategiyalarına aid suallar təqdim ediləcək. Bu ildən namizədlərə məntiq üzrə suallar təqdim edilməyəcək. Namizədlər vakansiya seçimini müsabiqənin test imtahanı mərhələsindən sonra edə biləcəklər. Bu mərhələdə keçid balını toplamış namizədlər 8 vakant yer seçə biləcəklər. Namizədlərin vakant yerlərə yerləşdirilməsi elektron ərizələrində qeyd etdikləri seçim ardıcıllığı gözlənilməklə aparılacaq. Müsahibə mərhələsində test imtahanlarının nəticələrinə əsasən vakant yer tutmaq hüququ qazanmış namizədlərin bilik və bacarıqları, psixoloji hazırlığı və ümumi dünyagörüşü yoxlanılacaq.

**Diqqət:** Ölkədə mövcud olan sanitar-epidemioloji vəziyyəti və Nazirlər Kabineti yanında Operativ Qərargahın pandemiya şəraitində imtahanların keçirilməsinə dair tələb və tövsiyələrini nəzərə alaraq, builki müəllimlərin işə qəbulu müsabiqəsinə əvvəlki illərdən fərqli olaraq xüsusi şərtlər tətbiq ediləcək.

* *Müsabiqənin test imtahanı mərhələsi ənənəvi olaraq Bakı şəhərində, bir məkanda deyil, ölkənin müxtəlif şəhər və rayonlarında yaradılan imtahan mərkəzlərində karantin rejiminin müvafiq tələblərinə əməl edilməklə əvvəlcədən elan edilmiş qrafikə uyğun olaraq təşkil ediləcək.*
* *Hər bir imtahan mərkəzində eyni zamanda imtahanda iştirak edəcək namizədlərin və təşkil ediləcək imtahan sessiyalarının sayına məhdudiyyət tətbiq olunacaq.*
* *İmtahanların təşkilinə cəlb olunan bütün əməkdaşlar COVID-19 testindən keçiriləcək.*
* *Builki imtahanda iştirakçıların kütləviliyinin azaldılması məqsədilə hazırda dövlət ümumi təhsil müəssisələrində çalışan və imtahanda iştirak etməkdə əsas məqsədi özünü sınamaq, əvvəlki imtahanda qazandığı nəticələri yaxşılaşdırmaqla iş yerini dəyişdirmək və ya ikinci iş yeri qazanmaq olan müəllimlər bu imtahanlarda iştirak etməyəcəklər. Bu namizədlərə növbəti aylarda əlavə olaraq təşkil ediləcək yerdəyişmə, qarşılıqlı yerdəyişmə və ya təkrar müəllimlərin işə qəbulu müsabiqəsində (sanitar-epidemioloji vəziyyətdən asılı olaraq) iştirak etmək imkanı təqdim ediləcək.*
* *Müsabiqənin müsahibə mərhələsi onlayn şəkildə təşkil ediləcək.*

Müəllimlərin işə qəbulu üzrə elektron ərizələrin qeydiyyatı tamamlandıqdan sonra müsabiqənin test mərhələsinin təşkil ediləcəyi imtahan mərkəzlərinin yerləri və həmin mərkəzlərdə imtahanın təşkil ediləcəyi tarixlər barədə məlumat namizədlərin elektron kabinetlərinə göndəriləcək.

**Azərbaycan milli mətbuatı – 145**

Bu yaxınlarda “Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında” Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən sərəncam imzalanmış, həmin tarixi yubileyin dövlət səviyyəsində keçirilməsi məqsədi ilə müvafiq dövlət qurumlarına tapşırıqlar verilmiş, koronavirus pandemiyası ilə əlaqədar Azərbaycan Respublikasının ərazisində tətbiq edilən karantin rejiminin tələbləri və Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələri nəzərə alınmaqla ölkə miqyasında yubiley tədbirlərinin yüksək səviyyədə keçirilməsi tapşırılmışdır. Sərəncamda deyildiyi kimi, 145 il əvvəl – 1875-ci il iyulun 22-də görkəmli ziyalı və maarifçi-publisist Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış “Əkinçi” qəzeti milli mətbuatımızın ilk nümunəsi və həmin dövr Azərbaycanın ictimai-siyasi həyatının mühüm hadisəsi kimi tarixə düşmüş, sonrakı illərdə çoxsaylı nəşrlərlə zənginləşən milli mətbuatımız Azərbaycan ədəbi dilinin və maarifçilik hərəkatının inkişafına əhəmiyyətli töhfələr vermiş, milli özünüdərk və istiqlal məfkurəsinin formalaşmasında, qabaqcıl milli ideyaların təbliğində böyük xidmətlər göstərmişdir.

Klassik mədəni irsə, milli-mənəvi dəyərlərə dövlətin və dövlət başçısının daimi diqqət və qayğısının parlaq təzahürü olan bu tarixi Sərəncamın Həsən bəy Zərdabinin Azərbaycanın mətbuat, məktəb və pedaqoji fikir tarixinin öyrənilməsində, bu böyük ictimai-siyasi xadimin xalqımızın milli oyanışı, özünüdərki və dirçəlişində, milli maarifçilik hərəkatının formalaşmasında, mətbuat və bütövlükdə mədəniyyətimizin tərəqqisi yolunda təmənnasız xidmətlərinin müstəqil milli dövlətçilik təfəkkürü kontekstində yenidən dəyərləndirilməsində, bu böyük fikir və əməl adamının zəngin irsinini dərindən tədqiqi, təbliği və müasir gəncliyə çatdırılmasında müstəsna rolu vardır. Bu tarixi yubileydən söz düşəndə, ilk növbədə, milli mətbuatımızın təməlini qoyan Həsən bəy Zərdabi fenomeni yada düşür.

Azərbaycan xalqının intellektual və mədəni inkişafında müstəsna xidmətlər göstərmiş Həsən bəy Zərdabi fenomeninin özəyində o dövr üçün nadir hadisə sayılan ensiklopedizm və universalizmi özündə birləşdirən həqiqi ziyalılıq – xalq arasında maarif işığını, nurunu, ziyasını yaymaq kimi müqəddəs amallar dururdu...



# Milli mətbuatımızın banisi, böyük maarifçi-ziyalı

**Həsən bəy Zərdabi:**

**“Bizim zəmanəmiz elm zamanıdır...”**

**Əsgər QULİYEV,**

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin Tədris resursları şöbəsinin müdir müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim*

Müasirləri böyük Azərbaycan ziyalısı və yeni dövrün ilk müəllimi, milli mətbuat və teatr sənətinin banisi, Vətənimizdə qadın təhsilinin ilk carçılarından biri olan Həsən bəy Zərdabinin (1842-1907) millət yolundakı tarixi xidmətlərini yüksək qiymətləndirərək onu “Qafqaz müsəlmanlarının atası”, “Zaqafqaziya müsəlman ziyalılarının müəllimi və mənəvi atası”, “Azərbaycanın yolgöstərəni”, “Azərbaycan xalqının birinci universiteti”, “Zaqafqaziya müsəlmanlarının milli oyanışının ilk bələdçisi”, “həqiqi qəhrəman”, “Azərbaycan mətbuatının piri”, “mətbuatımızın patriarxı”, “jurnalistlərin atası”, “millət mücahidi”, “ürəfa (ziyalı) və danışməndlərimizin ( alim ) sərkərdəsi”, “müsəlman ziyalılarının ağsaqqalı”, “maarif əkinçisi”, “mədəni həyatımızın pioneri”, “müsəlmanlar arasında Avropa təhsili alan ilk azərbaycanlı” kimi yüksək epitetlərlə təqdir edirdilər. Bu, səbəbsiz deyildi. Çünki bu böyük İNSAN şüurlu həyatının 40 ildən çoxunu dayanmadan, usanmadan, yorulmadan doğma xalqının maariflənməsi, mədəni xalqlar səviyyəsinə yüksəlməsi, ana dilində çağdaş dünyəvi təhsil ocaqlarının yaradılması, milli ziyalıların yetişdirilməsi işinə həsr etmişdi. “Maarifdən, elmdən məhrum olan xalq işıqdan məhrumdur”, – deyən böyük maarifçi-ziyalı inkişaf etmiş millətlər arasında doğma millətinin də imzasını görmək arzusu ilə ürəyini əfsanəvi Danko kimi məşəl edib, xalqının elm, maarif, təhsil yolunu işıqlandırmışdı. Yandırdığı maarif məşəlini ömrünün sonunadək əlindən yerə qoymamışdı. Qəlbinin hərarətini, gözünün nurunu bu müqəddəs amalın gerçəkləşməsinə həsr etmiş, bu yolda ömrünü şam kimi əritməkdən çəkinməmişdi. Hələ sağlığında özünün maarifçilik ideyalarının gerçəkləşməsinin simvolu olan çağdaş Azərbaycan ziyalılarının böyük ordusunu görmək sevincini də yaşamaq şərəfinə nail olmuşdu. Ömrünün son günlərində – ağır iflic xəstəliyindən dili söz, əli qələm tutmayan anlarında belə uğrunda çalışdığı müqəddəs amalı – millətinin maariflənməsi işini öz şəxsi həyatından uca tutaraq belə bir vəsiyyət də etmişdi:

*“Sizdən xahiş edirəm ki, mənim üçün təntənəli dəfn mərasimi düzəltməyin. Məni çox sadə dəfn edin. Dəfn üçün xərclənməsi lazım gələn vəsaiti müsəlmanlar (azərbaycanlılar) arasında savad yayan cəmiyyətə verin. Bu, mənim başı bəlalar çəkmiş xalqım üçün daha faydalı olardı...” (“Kaspi” qəz., Bakı, noyabr 1907).*

Həsən bəy Zərdabi XIX əsrin 2-ci yarısı – XX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi və mədəni fikir tarixinin təkrarolunmaz simalarından olub, milli maarifçilik, milli oyanış, milli dirçəliş ideyalarının gerçəkləşməsi yolunda misilsiz xidmətlər göstərmişdi. O, maarif və mədəniyyətimizin inkişafına böyük töhfələr vermiş, adını milli mədəniyyət tariximizə əbədi həkk etmiş böyük fikir və əməl adamlarından biri idi. Bu mütəfəkkir alim, görkəmli maarifçi, Böyük Qəzetçinin həyat və fəaliyyəti haqda filosoflar, bioloqlar, pedaqoqlar, tarixçilər, ədəbiyyatşünaslar tərəfindən qiymətli araşdırmalar aparılsa da, bu görkəmli fikir adamının zəngin bioqrafiyasında və ömür yolunda öyrənilməli məsələlər kifayət qədər çoxdur...

Ancaq bir həqiqəti etiraf etməliyik ki, H.Zərdabinin çoxcəhətli fəaliyyətində mərkəzi yeri maarifçilik, ana dilində təhsil, qadın təhsili, xalqın maariflənməsi, milli özünütanıma və özünüdərketmə ideyaları təşkil edir. Lakin bu ideyaların o zaman gerçəkləşməsi elə də asan məsələ deyildi. Çünki H.Zərdabinin qızğın fəaliyyət göstərdiyi XIX əsrin 2-ci yarısında bölünmüş Vətənimizin “Azərbaycan” adı xəritələrdən didərgin salınmışdı. Millətin tarixi “türk” adı unutdurulmuş, qurama “tatar” adı da çox hallarda “müsəlman” sözü ilə əvəzlənərək milli mənsubiyyət göstəricisinə çevrilmişdi. Xalq arasında sünni-şiə dini ayrı-seçkiliyi salınmışdı. Belə bir mürəkkəb tarixi şəraitdə xalqa kimliyini anlatmaq, xalqı vahid milli ideya ətrafında



toplamaq həyati zərurətə çevrilmişdi...

Bu məsələnin tarixindən bəhs edən böyük türk alimi Ziya Göyalp özünün məşhur “Türkçülüyün əsasları” (İstanbul, 1921) əsərində yazırdı ki, bu zamanlarda Əli bəy Hüseynzadə İstanbuldan, Əhməd bəy Ağayev Parisdən, Əlimərdan bəy Topçubaşov Peterburqdan ali təhsil alaraq Bakıya gəldilər. Onlar əl-ələ verərək azərbaycanlılar arasında hakim olan sünni-şiə çəkişmələrini aradan qaldıraraq, bütün azərbaycanlıları milli ideya (türkçülük, müasirlik və islamçılıq) ətrafında birləşdirməyə çalışırdılar. Məhz həmin fikir adamlarının gərgin fəaliyyəti nəticəsində Azərbaycan xalqı islam ümmətçiliyi ilə vidalaşıb türk millətçiliyinə, oradan da milli azadlıq ideyasına tarixi keçid etdi ki, bu tarix keçidin baş ideoloqu, həmin gənclərin fikir babası Həsən bəy Zərdabi idi.

Mətləb aydınlığı üçün bir tarixi faktı yada salmaq yerinə düşər ki, həmin Azərbaycan ziyalıları məhz Həsən bəyin məsləhəti və böyük mesenat Hacı Zeynalabdin Tağıyevin dəvəti ilə Bakıda bir araya gəlmişdilər. Məhz Hacının maddi dəstəyi ilə çap olunan mətbuat orqanlarında (“Kaspi”, “Həyat”, “Füyuzat”, “İrşad” və b.) və digər sahələrdə Böyük Maarifçi ilə çiyin-çiyinə çalışmışdılar...

Bu illərdə Həsən bəy Zərdabi Bakıda yaşayıb – yaradan Ə.Topçubaşov, Ə.Ağaoğlu, Ə.Hüseynzadə kimi tanınmış ziyalılarla birgə böyük mesenat, maarifçi-xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin maliyyə dəstəyi ilə millətin oyanışında, insan hüquqlarının qorunmasında, xalqın maariflənməsində və nəhayət milli ideyanın formalaşmasında əvəzsiz vasitə olan mətbuat vasitəsi ilə milli mücadilədə silahdaşları olan həmin ziyalılarla fəal iştirak etmiş, milli istiqlal məfkurəsinin formalaşmasına öz böyük töhfələrini vermişdi. Çünki o dövrün ziyalıları hesab edirdilər ki, “Mətbuat bir millətin lisanı (dili), samiəsi (qulağı), nəzəri (gözü), beyni deməkdir. Mətbuatsız millət söyləyəməz, eşidəməz, görəməz...” (Füyuzat j., Bakı, 1907, N29).

Həqiqətən, Həsən bəy Zərdabi sonralar “milli dövlətçilik tarixinin qızıl mərhələsi” sayılan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə nəticələnən milli-siyasi dirçəliş ideologiyasının-türkçülük, müasirlik, islamçılıq ideyalarının formalaşmasında müstəsna rol oynamış ictimai xadim idi. Gələcəkdə Cümhuriyyəti quran ziyalıları-ideya yetirmələrini və məsləkdaşlarını ətrafına toplayan böyük ideoloji rəhbər idi...

Görünür, Azərbaycan Xalq Cümhuriyyəti rəhbərlərinin dövlət quruculuğunda mənəvi ataları hesab etdikləri Həsən bəy Zərdabinin maarifçilik ideyalarındakı anadilli təhsilə, xüsusən, qadın təhsilinə üstünlük vermələrinin nəticəsi idi ki, bu dövrü tədqiq edən müasir Qərb tarixçiləri bu dövləti düzgün olaraq “ziyalıların hökuməti” adlandırırlar...

Azərbaycanın milli təhsil və pedaqoji fikir tarixinə dəyərli töhfələr vermiş, milli maarifçilik hərəkatının böyük carçısı H. Zərdabinin pedaqoji görüşlərində millətin mənəvi tərəqqisi və mədəni yüksəlişində maarifin, elmin, mədəniyyətin, mətbuatın, dilin, dinin müstəsna roluna dair XIX əsrin sonları – XX əsrin əvvəllərində müxtəlif mətbuat orqanlarında dərc edilmiş məqalələrindən iqtibas olunmuş müdrik fikirlərindən bir neçəsini hörmətli oxucuların diqqətinə çatdırmaq istərdik:

- *“ ... Maarifdən, elmdən məhrum olan xalq işıqdan məhrumdur...” ;*
- *“ ... Bizim zəmanəmiz elm zamanıdır və elm təhsil etmək hər tayfaya (millətə, xalqa) vacibdir ki, zindəganlıq davasında (milli mövcudluq mübarizəsində) heç olmasa özünü saxlaya bilsin və elm təhsil etmək ilə tərəqqi edib irəli gedən vaxtda hər tayfa gərək iki şeyi bərk saxlasın ki, bu şeylər hər tayfanın dirəkləri hesab olunurlar və onların tayfa olmağına səbəbdirlər. Bu şeylərin birisi dil və birisi din və məzhəbdir. Elə ki, bunların birisi əldən getdi, tayfanın beli sınan kimidir. İkisi də gedəndə tayfa qeyri tayfalara qarışır, mürur (zaman keçdikcə) ilə yox olur.*
- *“ ...Qardaşlar oxuyun, elm təhsil edin. Əlálxsus elm təhsil etmək biz Qafqaz müsəlmanlarına vacibdir...”;*
- *“... Doğrudur, bizim də məktəbxanalarımız var, amma onlardan ümdə mətləb, elmi - ədyan (dini elmlər) oxutmaqdır. Elmi-əbdan (dünyəvi elmlər) ya heç oxumuruq, ya oxutsaq da ona elə səy etmirik. Amma təzaqayi-zamanəyə (dövrün tələbinə) görə biz də qeyri millətlər kimi elmi-əbdanı elmi-ədyandan ayırıb, onun üçün qeyri məktəbxana bina edib, qeyri müəllimlər təyin edək. Belədə həm mollamız molla , həm də hükəmamız hükəma olub hər bir elm tərəqqi edər, yoxsa bu halda olan kimi hər iki elmin dalınca birdən düşdüyümüzə görə onların hər ikisindən avara oluruq...” ;*
- *“... Əql və elmi ilə insan tamam dünyanı təsəvvür edə bilər. Əql və qanacağın artıq olmağı elm təhsil etmək ilədir... Elm gərək sel kimi axsın, hər istəyən ondan içib doya bilsin..”;*
- *“... Hər bir vilayətin qəzeti gərək o vilayətin aynası olsun. O vilayətin sakinləri elədiyi işlər, onlara lazım olan şeylər, xülasə onların hər bir dərdi və xahişi ol qəzetdə çap olunsun ki, ol qəzetə baxan xalqı aynada görən kimi görsün...” və i.a.*

Hörmətli oxucu! Diqqətlə fikir verdinizsə, Həzən bəy Zərdabinin XIX əsrin sonlarında – XX əsrin əvvələrində söylədiyi bu müdrik kəlamlardakı nurlu, işıqlı ideyalar nəinki köhnəlməyib, əksinə günümüzdə də aktuallığını qoruyub saxlamışdır. *“Bizim zəmanəmiz elm zamanıdır”,* – deyən bu böyük mütəfəkkir millətin milli mövcudluğunun elmlə, maariflə, mədəniyyətlə, dillə və digər milli mənəvi dəyərlərlə inkişaf edəcəyinə, xalqın varlığının həmin dəyərlərlə qorunub saxlanacağına inanır, bu yolda dini və dünyəvi elmlərin məktəbdə ayrılıqda tədrisinin vacibliyini dönə-dönə qeyd edir, mətbuatı xalqın maariflənməsinin təməl vasitələrindən biri hesab edirdi.

Əziz oxucu! Gəlin, birlikdə bu böyük maarif fədaisinin, milli mətbuatımızın qurucusunun, millət mücahidinin ömür yoluna nəzər salaq:

Həsən bəy Səlim bəy oğlu Məlikzadə (Məlikov) – Zərdabi 1842-ci ildə Şamaxı quberniyası Göyçay qəzasının Zərdab kəndində ziyalı bəy ailəsində dünyaya göz açmışdı. Atası Səlim bəy, babası Rəhim bəy dövrünün açıq fikirli, müasir düşüncəli ziyalılarından olub dünyəvi elmlərin öyrədilməsinə üstünlük verirdilər. Həsən bəy 7-8 yaşlarından bir müddət mədrəsədə oxusa da, ilahiyyətə o qədər də maraq göstərmirdi. Atası balaca Həsəni 1852-ci ildə Şamaxıdakı ibtidai rus məktəbinə qoyur, öz bilik və bacarığı ilə hamının diqqətini cəlb edir. Həmin məktəbin buraxılış imtahanında öz istedadı ilə Qafqaz Təhsil İdarəsi müdirini heyran qoyan Həsən bəy onun təqdimatı ilə dövlət vəsaiti hesabına 1-ci Tiflis gimnaziyasına qəbul edilir. 1861-ci ildə oranı qızıl medalla bitirən Həsən bəyin adı o zaman gimnaziyada mövcud olan mərmər lövhəyə həkk edilmişdi. H. Zərdabi həmin il Moskva Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsinin təbiət elmləri şöbəsinə daxil olur. Tezliklə təlimdəki uğurlarına görə dövlət təqaüdçüsü statusuna yiyələnir. 1865-ci ildə oranı elmlər namizədi diplomu (bu diplom təhsildə ən yüksək müvəffəqiyyətə və əxlaqa görə verilirdi) ilə bitirən ilk azərbaycanlı olur. Tələbəlik illərində o, şərq-islam tarixi üzrə dərin biliyi ilə tarixçi rektor Sergey Mixayloviç Solovyovun diqqətini cəlb edir, bu sahə üzrə onun məsləhətçisinə, dostuna çevrilir. Nəticədə ailə ilə daha da yaxınlaşan Həsən bəy rektorun qızına vurulur. Onunla evlənmək qərarına gəlir. Moskvada qalıb işləmək təklifi alır. Lakin Həsən bəydəki Vətən sevgisi şəxsi məhəbbətinə üstün gəlir. Xalqı qarşısında xristian qızına evləndiyinə görə müsəlman mühafizəkarlarının tənələrindən qorunmaq üçün ilk məhəbbətindən imtina etməli olur. Böyük arzularla Vətənə dönən Həsən bəy bir müddət Tiflisdə torpaq palatası, Bakıda quberniya idarəsi və Qubada məhkəmədə çalışsa da, ciddi çətinliklərlə, hətta həyatına sui-qəsdlə üzləşir, yenidən Bakıya dönür.

Həsən bəyin həyatında onun gələcək ömür yolunu müəyyən edən tarixi hadisə baş verir. Belə ki, 1869-cu ildə böyük çətinliklə Bakı realnı gimnaziyasına təbiət tarixi müəllimi təyin olunur. Bununla da onun həyatında yeni dövr-maarifçilik, xalqın savadlanması, ana dilində təhsil uğrunda mübarizə mərhələsi başlayır. Lakin problemin çətinliyi onda idi ki, Həsən bəy Qafqazda o zaman fəaliyyət göstərən 10 gimnaziyada çalışan müəllimlər içərisində ali təhsilli yeganə azərbaycanlı idi. Azərbaycanlı şagirdlər də yox dərəcəsində idi. Həsən bəy azərbaycanlı uşaqları məktəbə cəlb etmək üçün xalq içərisində təbliğat aparmaqdan yorulmazdı. Günlərin birində bir dəmirçi uşağını məktəbə verməyə razı salan Həsən bəy onu gimnaziyaya düzəldir. Lakin uşağa dəftər-qələm almaqda çətinlik çəkən həmin dəmirçi Həsən bəyə şikayət edərək bu işə görə onu məzəmmət edir. O, dəmirçiyə məsləhət verərək “Çəkic-zindanını, palaz-paltarını sat, amma oğlunu oxut” demişdi. Əslində o, bununla azərbaycanlılara övladının təhsili üçün pul xərcləməyi öyrətmək istəyirdi... Həsən bəy uzun ayrılıqdan sonra Bakıya dönəndə həmin dəmirçinin oğlu ali təhsilli məşhur həkim olmuşdu. Fərhad Ağazadə 1925-ci ildə Azərbaycan mətbuatının 50 illiyinə həsr etdiyi “Həsən bəy Məlikov – Zərdabinin tərcümeyi- halı” kitabçasında həmin həkimin o zaman ahıl yaşlarında olduğunu yazırdı...

Digər bir oxşar maraqlı əhvalatı Həsən bəyin qızı Qəribsoltanın xatirələrindən öyrənirik. Belə ki, günlərin bir günü Qubadan Seyidov soyadlı bir oğlan uşağı “Kaspi” redaksiyasına Həsən bəyin yanına gələrək oxumaqda ona yardımçı olmasını xahiş edir. Uşaqla söhbət edən Həsən bəy zarafatla onu “Azərbaycanın Lomonosovu” adlandırır və evinə gətirir. 10 ildən artıq Həsən bəyin evində yaşayan və məktəbdə təhsil alan həmin uşaq sonralar ali təhsilli tanınmış hüquqşünas kimi yetişir...

Belə faktlar yüzlərlədir. Ümumiyyətlə, Həsən bəyi yoxsul və kimsəsiz uşaqların təhsilə cəlb olunması, onların təhsilinə yardım göstərilməsi məsələsi hər zaman narahat edirdi. O, bu məqsədlə müsəlmanlar arasında ilk dəfə 1872-ci ildə Bakıda “Cəmiyyəti-xeyriyyə” də yaratmışdı. Həmin ilin bütün yayını Həsən bəy Zərdabi gimnaziyada təhsil alan şagirdləri – gələcəyin məşhur ziyalıları olmuş Nəcəf bəy Vəzirov və Əsgərağa Adıgözəlov (Gorani) ilə birlikdə Azərbaycanın şəhər və kəndlərini dolanaraq rəsmi dəftərə – “Cəmiyyəti-xeyriyyə”yə üzv yazdırmaqla məşğul olmuşdu. Səfər zamanı toplanan 1600 rubl banka yatırılmış və onun gəliri ilə 2 yoxsul və kimsəsiz şagirdin təhsil haqqının ödənilməsi təmin edilmişdi. Həmin dövrdə subay olan Həsən bəy evində həmin cəmiyyətin pansionunu təşkil edir. Lakin yoxsul və kimsəsiz uşaqların tərbiyəsi və məktəbə hazırlığı ilə məşğul olmaq üçün savadlı türk (azərbaycanlı) qadın müəllim tapmaq zərurəti yaranır...

**(Ardı var)**

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Gəncə Dövlət Universiteti

## 2020/2021-ci tədris ilində aşağıdakı ixtisaslar üzrə ödənişli əsaslarla əyani formada yenidənhazırlanma (ixtisasdəyişmə) təhsili almaq üçün dinləyici qəbulu

## ELAN EDİR

1. Fizika müəllimliyi
2. Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
3. Riyaziyyat müəllimliyi
4. İnformatika müəllimliyi
5. Xarici dil müəllimliyi (İngilis dili)
6. Məktəbəqədər təlim və tərbiyə
7. İbtidai sinif müəllimliyi
8. Kimya müəllimliyi
9. Biologiya müəllimliyi
10. Tarix müəllimliyi
11. Coğrafiya müəllimliyi

Yenidənhazırlanma təhsili müəssisə, təşkilat, idarə və ayrı-ayrı vətəndaşlarla Gəncə Dövlət Universiteti arasında bağlanmış fərdi müqavilələr əsasında həyata keçirilir. Dövlət və özəl ali təhsil müəssisələrinin məzunları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 16 sentyabr tarixli 163 nömrəli qərarı ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"na uyğun olaraq ilkin baza təhsili proqramları ilə yenidən əldə ediləcək ixtisasın baza təhsili proqramı arasındakı fərqin bir tədris ilinə hesablanmış saatdan çox olmaması şərtilə müsabiqədə iştirak edə bilərlər.

Yenidənhazırlanma təhsili almaq istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *rektorun adına ərizə və müqavilə;*
- *ali təhsil haqqında sənədin (diplomun və ona əlavənin) notariat qaydada təsdiq edilmiş surəti;*
- *3x4 sm. ölçüdə 2 ədəd rəngli fotoşəkil;*
- *sağlamlıq haqqında arayış;*
- *şəxsiyyət vəsiqəsinin surəti.*

Yenidənhazırlanma təhsili almaq üçün universitetə sənəd vermiş şəxslərlə müsahibə aparılır. Müsahibədən uğurla keçənlər müqavilə əsasında təhsil haqqı ödənilməklə yenidənhazırlanma təhsilinə qəbul edilirlər. Dərslər oktyabr ayının 15-dən başlanır. Təhsil müddəti 8 aydır.

**Qeyd:** *Sənədlər 21 iyul 2020-ci il tarixdən (istirahət günlərindən başqa) sentyabr ayının 31-nə qədər saat 10:00-dan 17:00-dək GDU-nun V tədris binasında (otaq 25) qəbul edilir.*

**Ünvan:** AZ 2000, Gəncə şəhəri, Cavad bəy Rəfibəyli 57
Gəncə Dövlət Universiteti, V tədris binası

**Telefon:** (022) 264 - 24 -44; (055) 650 - 20-20;
(051) 765-01-51; (055) 275-79-41

**Email:** *zeynalov148@mail.ru*
*Gunel_huseynova_91@inbox.ru*

**REKTORLUQ**

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Gəncə Dövlət Universiteti

## 2020/2021-ci tədris ilində aşağıdakı ixtisaslar üzrə əlavə (təkrar) ali təhsil almaq istəyənlər üçün əyani və qiyabi təhsil forması üzrə sənəd qəbulu

## ELAN EDİR

**Əyani təhsil forması üzrə:**

Gəncə Dövlət Universitetində fəaliyyət göstərən bütün ixtisaslara.

**Qiyabi təhsil forması üzrə:**

1. İqtisadiyyat
2. Mühasibat uçotu
3. Tarix
4. Sosial iş
5. Bədən tərbiyəsi və idman
6. Filologiya (Azərbaycan dili və ədəbiyyat)
7. Turizm və otelçilik

Əlavə ali təhsil ödənişli formada müəssisə, təşkilat, idarə və ayrı-ayrı vətəndaşlarla Gəncə Dövlət Universiteti arasında bağlanmış fərdi müqavilələr əsasında həyata keçirilir. Əlavə ali təhsil müvafiq ixtisas üzrə bakalavriat (və ona bərabər tutulan) səviyyəsi üçün mövcud olan baza təhsil proqramlarındakı ümumi və ixtisas fənləri bölümlərini əhatə etməklə, tələbənin əvvəlcə aldığı baza təhsil proqramı ilə yeni ixtisasın baza təhsil proqramı arasındakı fərq nəzərə alınmaqla xüsusi hazırlanmış təhsil proqramları əsasında aparılır.

Əlavə ali təhsil almaq istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *rektorun adına ərizə və müqavilə;*
- *ali təhsil haqqında sənədin (diplomun və ona əlavənin) notariat qaydada təsdiq edilmiş surəti;*
- *əmək kitabçasının surəti;*
- *3x4 sm. ölçüdə 6 ədəd fotoşəkil;*
- *şəxsiyyət vəsiqəsinin surəti;*
- *sağlamlıq haqqında arayış.*

Xarici ölkələrin ali təhsil müəssisələrinin məzunları aldıqları ixtisasların Azərbaycan Respublikası ərazisində tanınması və ekvivalentliyi barədə Təhsil Nazirliyi tərəfindən verilmiş şəhadətnamə təqdim etməlidirlər.

Əlavə ali təhsil almaq üçün universitetə sənəd vermiş şəxslərlə müsahibə aparılır. Müsahibədən uğurla keçənlər müqavilə yolu ilə əlavə ali təhsil almaq üçün seçdiyi ixtisas üzrə tələbələr sırasına qəbul edilirlər.

Təhsil - əyani təhsil formasında Azərbaycan və rus, qiyabi təhsil formasında isə Azərbaycan dilindədir. Təhsil haqqı müqavilə əsasında ayrı-ayrı ixtisaslara uyğun olaraq ödənilir.

**QEYD:** Sənədlər 2020-ci il iyul ayının 21-dən sentyabr ayının 10-dək (istirahət günlərindən başqa) saat 10:00-dan 17:30-dək GDU-nun V tədris binasında Əlavə təhsil fakültəsinin dekanlığında qəbul edilir.

**Ünvan:** AZ 2000, Gəncə şəhəri, Cavad bəy Rəfibəyli 57
Gəncə Dövlət Universiteti, V tədris binası
**Telefon:** (022) 264 - 24 -44; (055) 650 - 20-20;
(051) 765-01-51; (055) 275-79-41
**Email:** *zeynalov148@mail.ru*
*Gunel_huseynova_91@inbox.ru*

**REKTORLUQ**

**"AZƏRBAYCAN MÜƏLLİMİ"**

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74

**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 5613, **Sifariş** 1713

**Məsul növbətçi:** O.Mustafayev

# Etibarsız sayılır

**Bakı şəhər** 30 nömrəli tam orta məktəbin IX sinfini 1997-ci ildə bitirmiş Əzməmmədova Ülkər İsmayıl qızına verilmiş əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 102 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Leontyev Yuriy Vladimiroviçə verilmiş A-283555 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Sarıcalar kənd tam orta məktəbini 1995-ci ildə bitirmiş Mayılova Arzu Qüdrət qızına verilmiş A-193998 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Müəllimlər İnstitutu** Salyan filialı tərəfindən 2014-cü ildə Əlizadə Təhməz Zabit oğluna verilmiş A-030254 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** V.Əsgərov adına şəhər 4 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Əzizov Sərxan Mətləb oğluna verilmiş BN-023300 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2017-ci ildə ZeynelabidinTek Mehmet oğluna verilmiş A-137779 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 329 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Əliyev Murad Vidadi oğluna verilmiş E-207624 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad İnstitutu** tərəfindən 1994-cü ildə Qəhrəmanov Natiq Akif oğluna verilmiş AB-I-029669 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 39 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Bayramova Kifayət Famil qızına verilmiş A-309835 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 81 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Mehtiyeva Səkinə Elnar qızına verilmiş E-015487 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 267 nömrəli məktəb-liseyi 2015-ci ildə bitirmiş Həbibov Ayxan Elxan oğluna verilmiş A-397867 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Yardımlı rayon** Yolacaq kənd tam orta məktəbini 1991-ci ildə bitirmiş Bədirov Əhliman Həqiqət oğluna verilmiş AN-256241 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 26 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş İbrahimzadə Sara Rafik qızına verilmiş E-197434 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2004-cü ildə Muxtarova Nuray Allahverdi qızına verilmiş A-148150 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2018-ci ildə Məmmədov Ceyhun Faiq oğluna verilmiş A-144659 nömrəli bakalavr dublikat diplomu itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 29 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Məhərrəmova Sevinc Bəhlul qızına verilmiş A-152529 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur şəhər** 2 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Seyidov Mirqasım Mirməhəmməd oğluna verilmiş E-184367 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** 35 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Sadıqova (Hüseynova) Vüsalə Camal qızına verilmiş B-105768 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**C.Naxçıvanski adına Hərbi Liseyi** 2008-ci ildə bitirmiş Bağırov Babək Dağbəyi oğluna verilmiş B-577358 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Nizami kənd tam orta məktəbi 1990-cı ildə bitirmiş Yaqubov Daşqın Albert oğluna verilmiş A-026217 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 18 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Zamanova Rasimə Firidun qızına verilmiş B-308360 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2008-ci ildə Hacıyeva Könül Həsən qızına verilmiş B-125695 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Xarici İşlər nazirinin müavini, ADA Universitetinin rektoru Hafiz Paşayevə həyat yoldaşı

**RƏNA PAŞAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin rəhbərliyi və kollektivi Təhsil nazirinin müşaviri Elnur Məmmədova əzizi

**AYBƏNİZ HƏSƏNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, SSRİ və Azərbaycan Xalq artisti Fərhad Bədəlbəyli və akademiyanın kollektivi Xarici İşlər nazirinin müavini, ADA Universitetinin rektoru Hafiz Paşayevə həyat yoldaşı

**RƏNA PAŞAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Firduz, Tofiq, Fehruz, Uğur, Rövşən Cəbrayıl rayonu akademik Ə.Hüseynov adına Əmirvarlı kənd tam orta məktəbin praktik psixoloqu Nairə Cəfərovaya həyat yoldaşı

**TEYYUB MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İdrak Liseyinin rəhbərliyi və pedaqoji kollektivi liseyin informatika müəllimi Kamilə Rüstəmovaya atası

**RƏFİ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Abbas Məmmədov


Əkbər Vahablı


Hüseyn Mehdiyev


Sədiyar Qafarov


Əziz Hüseynov

Məlumdur ki, istedadlı uşaqların aşkara çıxarılması, onların elmi biliklərə həvəsləndirilməsi və rəğbətləndirilməsində müxtəlif fənn olimpiadalarının, bilik yarışlarının mühüm əhəmiyyəti var. Bu məqsədlə Təhsil Nazirliyi tərəfindən son illərdə ənənəvi olaraq istedadı və yaradıcı təfəkkürü ilə fərqlənən şagirdləri aşkar etmək üçün, bir qayda olaraq, ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri cəlb olunmaqla Azərbaycan dili və ədəbiyyat, tarix, coğrafiya, riyaziyyat, fizika, kimya, biologiya, informatika fənləri üzrə fənn olimpiadaları təşkil olunur. Çox sevindirici haldır ki, pandemiya dövründə yaşanan çətinliklərə baxmayaraq builki yarışlarda da 34 minə yaxın şagird öz bilik və bacarıqlarını nümayiş etdirə bilib. Olimpiadanın nəticələrinə görə, xüsusi istedadı və hazırlığı ilə seçilən 55 nəfər qızıl, 105 nəfər gümüş, 160 nəfər bürünc olmaqla ümumilikdə 320 nəfər qalib elan edilib. Fənn olimpiadalarının nəticələrinə əsasən, ayrı-ayrı fənlər üzrə qızıl medala layiq görülmüş 10 məktəbli həm də “Birincilərin birincisi” adını qazanıb. Gənc zəkalarla daha yaxından tanış olaq.

# Birincilərin birincisi

## Azərbaycanın gənc istedadlarını tanıyaq


Murad Ağazadə


Uğur İlyaslı


Əjdər Fərzullazadə


Ziya Rəsulzadə


Məhəmməd Yusifov

**Oruc MUSTAFAYEV**

### “Artıq Koreyanın KAIST Universitetinə qəbul olmuşam”

*Abbas Məmmədov, Təhsil Nazirliyinin tabeliyindəki Fizika-riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdi:*

- 17 iyul 2002-ci il tarixində anadan olub. Fizika-riyaziyyat və informatika təmayüllü liseyin builki məzunudur. Artıq 4 ildir ki, riyaziyyat olimpiadası ilə məşğuldur. Bu müddət ərzində bir çox yerli və beynəlxalq olimpiadalarda iştirak edib. 2017-2020-ci illər ərzində 4 dəfə respublika olimpiadasında iştirak edib - 2 qızıl, bir gümüş və bir bürünc medal qazanıb. Bu il isə riyaziyyat fənnindən qızıl medalla yanaşı “Birincilərin birincisi” nominasiyasına da layiq görülüb. Bundan əlavə, 2017-ci ildə Yeniyetmələrin Balkan Riyaziyyat Olimpiadasında (JBMO) bürünc, 2019-cu ildə Balkan Riyaziyyat Olimpiadasında (BMO) bürünc, 2020-ci ildə Qafqaz Riyaziyyat Olimpiadasında (CMO) qızıl, 2020-ci ildə Beynəlxalq Jautikov Olimpiadasında (IZhO) gümüş, 2020-ci ildə Asiya Pasifik Riyaziyyat Olimpiadasında (APMO) gümüş medallara, Beynəlxalq Riyaziyyat Olimpiadasında (IMO-2019) Honourable Mention (həvəsləndirici) sertifikata layiq görülüb.

- Builki fənn olimpiadalarının obyektivliyi və balların müzakirəsi barədə təəssüratlarım müsbətdir. Beynəlxalq arenadan isə qatıldığım 6 olimpiadadan birində qızıl, ikisində gümüş, ikisində bürünc olmaqla 5 medalım və bir həvəsləndirici sertifikatım var. İndi isə qarşıdan gələn və sentyabrda keçirilməsi planlaşdırılan Beynəlxalq Riyaziyyat Olimpiadasına hazırlaşıram və ən böyük arzum bu olimpiadadan yaxşı bir medal qazanaraq ölkəmi təmsil etməkdir. Bununla yanaşı, qeyd etmək istəyərdim ki, artıq Koreyanın KAIST Universitetinə qəbul olmuşam və təhsilimi burada davam etdirməyi planlaşdırıram.

### “Olimpiadaların şəffaf, obyektiv keçirilməsinin şahidi oldum”

*Əkbər Vahablı, Təhsil Nazirliyinin tabeliyindəki akademik Zərifə Əliyeva adına liseyin X sinif şagirdi:*

- 2004-cü il fevralın 9-da Bakı şəhərində anadan olub. İlk təhsilini 135 nömrəli tam orta məktəbdə alıb, VI sinifdən isə Bakı Türk Liseyində davam etdirib. 2018-ci ildə imtahan verərək akademik Zərifə Əliyeva adına liseyin IX sinfinə qəbul olunub. Hazırda həmin liseydə təhsilini davam etdirir.

- Azərbaycan dili və ədəbiyyat fənninə hər zaman marağım olub. Hətta kiçik yaşlarımda keçirilmiş inşa müsabiqəsində də yer tutmuşam. Məhz buna görə də bu fənn üzrə olimpiadalara qatıldım. 2019-cu ildə gümüş medala layiq görüldüm. Lakin məqsədim daha da irəli getmək, qızıl medala nail olmaq idi. Buna görə də qarşıma məqsəd qoydum, inamla, həvəslə çalışdım. Baxmayaraq ki, 10-cu sinif idim, hədəfimə çatmaq üçün əlimdən gələni əsirgəmədim. Uğuruma gedən yolda qarşıma maneələr çıxsa da, onları dəf etməyi bacardım. Nəhayət, hədəfimə nail olaraq bu il keçirilən Respublika fənn olimpiadalarında Azərbaycan dili və ədəbiyyat fənni üzrə qızıl medal qazandım. Eyni zamanda bu fənn üzrə “Birincilərin birincisi” nominasiyasına layiq görüldüm.

İştirak etdiyim illərdə Respublika fənn olimpiadalarının nə qədər şəffaf, obyektiv keçirilməsinin şahidi oldum. Dünyanı cənginə alan COVID-19 virusu bir çox məhdudiyyətlər yaratsa da, olimpiadanın son mərhələsi bütün tibbi qaydalara əməl olunaraq təşkil edildi. Bu mötəbər yarışda iştirak edib uğur qazanmaq məndə sevinc və qürur hissi yaradır. Belə yarışlar şagirdlər arasında rəqabəti artırmaqda, istedadlı şagirdlərin aşkar edilməsində vacib rol oynayır. Buna görə də olimpiadaların təşkilində əməyi keçən hər kəsə, Təhsil Nazirliyinə təşəkkürümü bildirirəm. İyulun 10-da Təhsil naziri Ceyhun Bayramov “Birincilərin birincisi” adına layiq görülən şagirdlərlə onlayn formatda görüş keçirərək bizi və bizim timsalımızda bütün qalibləri təbrik etdi, uğurlarımızın davamlı olmasını arzuladı.

Hər uğurun əldə edilməsində bünövrənin, qoyulan təməlin möhkəmliyi əsas rol oynayır. Olimpiadalarda qazandığım uğurlara görə mənə ilk gündən qələm tutmağı, əlifbanı öyrədən, elmin dərinliklərini mənimsədən bütün müəllimlərimə təşəkkür edirəm. Həmçinin mənim kimi şagirdlərin uğur qazanmasında önəmli payı olan, bizə hərtərəfli təhsil verən akademik Zərifə Əliyeva adına liseyə minnətdarlığımı bildirirəm. İlk gündən yanımda olan, uğurlarıma mənimlə birgə sevinən, ən çətin anlarımda məni yalnız qoymayan ailəmə, xüsusən də anama sonsuz təşəkkürümü bildirirəm. Bu uğurlarımın sayını daha da artırmaq ümidiylə...

### “Qaliblərin siyahısında öz adımı görəndə çox sevindim...”

*Hüseyn Mehdiyev, Bakı şəhəri 151 nömrəli tam orta məktəbin XI sinif şagirdi:*

- 2003-cü il noyabrın 14-də Bakı şəhərində anadan olub. 2009-cu ildə Nəsimi rayonunda yerləşən 151 nömrəli tam orta məktəbin I sinfinə daxil olub. Bu il adıçəkilən məktəbi əla qiymətlərlə bitirərək məzun olub.

- Respublika fənn olimpiadalarında 9-cu sinifdən iştirak etməyə başlamışam. Həmin il finala qədər irəliləyərək RFO-nun finalçısı olmusam. Bu il isə “Birincilərin birincisi “ nominasiyası üzrə qalib elan olunmuşam. Qaliblərin siyahısında öz adımı görəndə çox sevindim və qürur hissi keçirdim.

Builki olimpiadanın final mərhələsi pandemiya dövrünə təsadüf etdi, psixoloji cəhətdən bir qədər gərginlik olsa da müəllimlərimin və valideynlərimin dəstəyi ilə olimpiadaya ciddi hazırlaşdım. Olimpiadada uğur qazanmaq böyük zəhmət və əzmkarlıq tələb edir. Hazırda ciddi şəkildə qəbul imtahanlarına hazırlaşıram. Hədəfim imtahanlarda yüksək bal toplayaraq istədiyim ixtisas üzrə ali məktəbə daxil olmaqdır.

### “Hədəfim dünyanın ən tanınmış universitetlərindən birində təhsil alıb həkim olmaqdır”

*Sədiyar Qafarov, Kimya- biologiya təmayüllü Respublika liseyinin X sinif şagirdi:*

- 2004-cü il fevralın 22-də Bakı şəhərində anadan olub. Əvvəlcə 13 nömrəli tam orta məktəbə qəbul olunub, sonra isə təhsilini 308 nömrəli tam orta məktəbdə davam etdirib. Məktəblilərarası 3-cü fənn müsabiqəsində iştirak edərək bürünc medal alıb və Təhsil Nazirliyi tərəfindən Kimya-biologiya təmayüllü Respublika liseyində təşkil edilmiş olimpiada sinfinə qəbul olunub. 2018-ci ildə Respublika fənn olimpiadasında qızıl medala layiq görülüb. 2018 və 2019-cu illərdə RFO-da iki qızıl medal qazanıb. 2018-ci ilin dekabrında Botsvanada və 2019-cu ildə Qətərdə keçirilən Yeniyetmələrin Beynəlxalq Elm Olimpiadasında iki dəfə bürünc medal qazanıb. Bu il Respublika fənn olimpiadasında iştirak edərək biologiya fənni üzrə “Birincilərin birincisi” nominasiyasına layiq görülüb.

- Respublika və Beynəlxalq fənn olimpiadalarına hazırlıq məşğələlərinə qatılarkən öz ixtisasıma uyğun yeni biliklər əldə edirəm. Bizə hazırlıq məşğələlərində keçilən mövzular dünya səviyyəli universitetlərin qəbul etdiyi biliklərdir. Düşünürəm ki, Respublika fənn olimpiadalarında iştirak edən şagird bunları nəzərə almalı və biliklərini daim inkişaf etdirməlidir. Biologiya üzrə fənn olimpiadalarındakı məsələlərin həlli şagirdlərdən fizika, kimya və riyaziyyat kimi digər fənləri də yüksək səviyyədə bilməyi tələb edir. Gələcək məqsədim dünyanın ən tanınmış universitetlərindən birində təhsil alıb həkim olmaqdır. Zənnimcə, mənim bu uğurlarımı görən şagirdlərdə oxumağa və həvəslə çalışmağa maraq yaranacaq.

### “Olimpiadanın final mərhələsinin yüksək səviyyədə təşkili üçün Təhsil Nazirliyinə təşəkkür edirəm”

*Əziz Hüseynov, Gəncə şəhəri 15 nömrəli tam orta məktəbin X sinif şagirdi:*

- 2004-cü il oktyabrın 12-də Gəncə şəhərində anadan olub. İlk təhsilinə 2010-cu ildə Gəncə şəhəri M.Mehdizadə adına 4 nömrəli tam orta məktəbdə başlayıb. 2016-cı ildə Gəncə “İstək” liseyinə birinciliklə qəbul olub. Həmin tədris ilində informatikadan Respublika fənn olimpiadasında iştirak edib və qızıl medal qazanıb. Növbəti tədris ilində Respublika fənn olimpiadasından 2-ci qızıl medal qazanıb. İyun ayında isə ABŞ-da keçirilən “Genius” olimpiadasında qızıl medala layiq görülüb. 2018-2019-cu tədris ilində Təhsil Nazirliyinin təşkil etdiyi informatika dərslərində aktiv iştirak edib və fənn olimpiadasında informatika üzrə qızıl medal əldə edib.

- 2019-cu ildə Sloveniyada keçirilən Avropa yeniyetmələrin informatika olimpiadasından respublikamıza ilk gümüş medal gətirdim və həmin ilin noyabr ayında Bolqarıstanda keçirilən IATI-də gümüş medal qazandım. 2020-ci ilin yanvarında Qazaxıstanda keçirilən beynəlxalq Jautikov olimpiadasında bürünc medala layiq görüldüm.

Mart ayından məlum pandemiya ilə əlaqədar VIII sinifdə oxuyan bacım Fidanın olimpiadaya hazırlaşmasında yardımçı oldum və bu çətin şəraitdə 2019-2020-ci tədris ilində respublika fənn olimpiadasında özüm “Birincilərin birincisi” oldum, bacım isə aşağı yaş qrupunda informatika fənni üzrə qızıl medal qazandı. Bu, mən və ailəmiz üçün ikiqat sevinc idi.

Bu çətin şəraitdə olimpiadanın final mərhələsinin çox yüksək səviyyədə təşkili üçün Təhsil Nazirliyinə təşəkkür edirəm. Hazırda sentyabrda online şəkildə keçiriləcək Beynəlxalq İnformatika Olimpiadasına hazırlaşıram, gələcəkdə təhsilimi kompüter elmləri sahəsində davam etdirməyi planlaşdırıram.

### “Təhsil naziri ilə görüşümüz olduqca xoş keçdi”

*Murad Ağazadə, Təhsil Nazirliyinin tabeliyindəki Fizika-riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdi:*

- 2002-ci il 28 yanvar tarixində Naxçıvan MR-nın Şərur rayonunda anadan olub. 2009-cu ildə 220 nömrəli tam orta məktəbin I sinfinə gedib. VIII sinifdən etibarən Fizika-riyaziyyat və informatika təmayüllü Respublika liseyində təhsil alır. VII sinifdən riyaziyyat üzrə beynəlxalq olimpiadalarda iştirak edir. Respublika fənn olimpiadalarında 4 qızıl medal qazanıb. 13 beynəlxalq yarışda iştirak edib, 5 gümüş, 6 bürünc medala layiq görülüb. Beynəlxalq Meqapolislər Olimpiadasının (2017) bürünc, (2018 və 2019) gümüş, Beynəlxalq Jautikov Olimpiadasının (2019 və 2020) gümüş, Balkan Riyaziyyat Olimpiadasının (2017, 2018) bürünc, (2019) gümüş, Qafqaz Riyaziyyat Olimpiadasının (2019) bürünc, Yeniyetmələrin Balkan Riyaziyyat Olimpiadasının (2017) bürünc, Beynəlxalq Riyaziyyat Olimpiadasının (2019) bürünc medalçısıdır.

- Builki Respublika fənn olimpiadaları iştirak etdiyim 5-ci yerli olimpiada idi, əvvəl qatıldığım 4 olimpiadadan qızıl medal almışdım, odur ki, hədəfim bu dəfə də qızıl almaq idi. Hədəfimə çatıb qızıl medala layiq görüldüm və “Birincilərin birincisi” nominasiyasını da qazandım. Əsas məqsədim sentyabr ayında online şəkildə keçirilməsi planlanan Beynəlxalq Riyaziyyat Olimpiadasında qızıl medal qazanmaqdır. Bu, artıq son beynəlxalq olimpiadam olacaq, odur ki, bacardığımın ən yaxşısını etməliyəm. “Birincilərin birincisi” olmağımız münasibətilə Təhsil naziri Ceyhun Bayramovla görüşümüz də olduqca xoş keçdi.

### “Üzərimdə əməyi olan hər kəsə minnətdarlığımı bildirirəm”

*Uğur İlyaslı, Sumqayıt şəhəri 2 nömrəli tam orta məktəbin X sinif şagirdi:*

- 14 iyun 2004-cü ildə ziyalı ailəsində anadan olub. 2010-cu ildə Sumqayıt şəhər 2 nömrəli tam orta məktəbin I sinfinə daxil olub. Xüsusi istedadına görə valideynləri onu həmin il Sumqayıt şəhər Fikrət Əmirov adına musiqi məktəbinə də qoyublar. 2017-ci ildə musiqi məktəbini fortepiano ixtisası üzrə əla qiymətlərlə bitirib. 2013-cü ildə Sumqayıt şəhər 3 saylı Uşaq-Gənclər İdman Şahmat-Dama Məktəbinə yazılıb. 2019-cu ildə 2 nömrəli tam orta məktəbin ümumi orta təhsil səviyyəsini əla qiymətlərlə bitirib və “Xüsusi nümunəli şəhadətnamə” ilə təltif edilib. 2017-ci ildə biologiya üzrə respublika fənn olimpiadasının iştirakçısı olub. 2015-2016-cı illər ərzində yeniyetmələrin şahmat olimpiadalarında I, II, III yerləri, Vüqar Həşimov adına Memorial beynalxalq şahmat turnirində, 37-ci Azərbaycan çempionatında (şahmat həlletməsi) 12 yaşlılar arasında I yeri tutub. 2016-cı ildə Gürcüstanda 12 yaşlı oğlanlar arasında dünya çempionu olub. 2018-ci ilin iyul ayında FIDE tərəfindən CM (Candidate Master) tituluna layiq görülüb. 2018-ci ildə XVII Beynalxalq uşaq şahmat turnirində (A qrupu) I yeri tutub.

2018-ci ilin iyulunda Fransanın Strasburq şəhərində keçirilən şahmat üzrə beynəlxalq Open turnirində I və II yerləri bölüşdürüb. 2019-cu ildə Türkiyədə məktəblilərin şahmat üzrə Dünya çempionatının 15 yaşlı oğlanlar arasında mükafatçısı olub. 2019-cu ilin avqustunda Dubayda keçirilən “II HOC_Al Sayyah intetnational blitz championship” turnirində “2000-2200 rating” kateqoriyasında I, 2019-cu ilin mayında şahmat üzrə Azərbaycan birinciliyində 16 yaşadək oğlanlar arasında III yeri tutub. 2018-2019-cu illərdə tarix fənni üzrə Respublika fənn olimpiadalarında 2 dəfə gümüş medala layiq görülüb.

- Bu il yuxarı yaş qrupunda X sinif şagirdi olmağıma baxmayaraq RFO tarix fənni üzrə “Birincilərin birincisi” oldum. Mənim bu uğurumda tarix müəllimim anam Hənifə Hüseynovanın əməyi, əziyyəti çox olub. Ümumiyyətlə, mən bu nailiyyətlərimə görə üzərimdə əməyi və zəhməti olan hər bir kəsə öz dərin minnətdarlığımı bildirirəm. Gələcək hədəflərimə gəlincə məktəbi qızıl medalla bitirmək, gələn il RFO-da yenidən iştirak etmək, ali məktəbə qəbul olmaq, koronavirus bitdikdən sonra şahmat yarışlarında iştirak etməkdir.

### “Hədəfim təhsilimi Türkiyədə tibb sahəsində davam etdirməkdir”

*Əjdər Fərzullazadə, Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinin XI sinif şagirdi:*

- 2003-cü ildə Lənkəran rayonunda anadan olub. 5 yaşında ailəsi ilə birlikdə Bakıya köçüb və IX sinfə qədər Bakıdakı 177 nömrəli tam orta məktəbdə təhsil alıb. Təhsil illərində özünü idmanın müxtəlif sahələrində -üzgüçülük, futbol, şahmat, taekvondoda sınayıb. Şahmat üzrə birinci dərəcə və müxtəlif yarışların diplomları, taekvondo üzrə qara kəmər və respublika 2-cisi kimi uğurları var. 2018-2019-cu tədris ilindən Beynəlxalq Elm Olimpiadasının hazırlıq prosesinə cəlb olunub.

- IX sinifdə Türkiyə Dəyanət Vəqfi Bakı Türk Liseyinə qəbul olandan sonra özümdə təbiət elmlərinə qarşı böyük maraq olduğunu və bu marağın da istedadla dəstəkləndiyini, bu sahədə böyük uğurlar qazanacağımı anladım və məktəb səviyyəsindən əlavə olaraq olimpiada hazırlıqlarına başladım. 3 dəfə respublika və 2 dəfə Beynəlxalq fənn olimpiadasında iştirak etmişəm. Respublika fənn olimpiadalarında 1 gümüş, 2 qızıl medalla yanaşı, böyük nüfuza malik olan 2 Beynəlxalq olimpiadada bürünc medal qazanmışam. Respublika fənn olimpiadalarının son illərdə beynəlxalq olimpiadaların səviyyəsinə yaxınlaşdığını, sual formatlarının hər il daha da mütərəqqi olmasını vurğulamaq istəyirəm. Gələcək illərdə də bu inkişafın daha da artacağından şübhəm yoxdur.

Məktəbi bitirdim və hədəfim təhsilimi Türkiyədə tibb sahəsində davam etdirməkdir. Həkim olaraq insanlara kömək etmək, müalicəsi olmayan və ya çox çətin olan xəstəliklərin çarəsini tapmaq, bu elmin Azərbaycanda və dünyada inkişafına töhfələr vermək hədəflərim arasındadır.

### “Təhsilimi Azərbaycanda başlayıb xaricdə bitirməyi düşünürəm”

*Ziya Rəsulzadə, Oğuz rayonu Xaçmaz kənd M.F.Axundov adına 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi:*

- 9 aprel 2003-cü il tarixində Oğuz rayon Xaçmaz kəndində anadan olub. M.F.Axundov adına 1nömrəli tam orta məktəbin builki məzunudur.

- Respublika fənn olimpiadalarında 8-ci sinifdən iştirak etməyə başlamışam və IX sinifdə bürünc, 10-cu sinifdə gümüş medallara layiq görülmüşəm. Bu il isə qızıl medal qazanaraq “Birincilərin birincisi” nominasiyasının qalibi olmuşam. Coğrafiyada olan uğurlarıma görə əvvəllər müəllimim olmuş Dürdanə Kərimovaya və ən əsası hazırda müəllimim olan Samir Cəbrayılova borcluyam. Oğuzun və Xaçmaz kəndinin adını yüksəkliklərə qaldırmaq bir qürurdur. Gələcək təhsilimə isə öncə Azərbaycanda başlayıb daha sonra xaricdə bitirməyi planlayıram. Ali məktəbdə iqtisadiyyat üzrə təhsil almaq niyyətindəyəm.

### “Gələcəkdə IT üzrə təhsil almağı planlaşdırıram”

*Məhəmməd Yusifov, Təhsil Nazirliyinin tabeliyindəki Fizika-riyaziyyat və informatika təmayüllü liseyin XI sinif sagirdi:*

- 2018-ci ildə Botsvanada yeniyetmələrin 15-ci Beynəlxalq Elm Olimpiadasında (İJSO) və 2020-ci ilin yanvarında Qazaxıstanın Almatı şəhərində keçirilən XVI Beynəlxalq Jautikov Olimpiadasında fizika fənnindən bürünc medallar qazanıb.

- Respublika fənn olimpiadalarına fizika üzrə VIII sinifdən qatılıram. İlk dəfə bürünc və sonrakı illərdə 3 qızıl medala layiq görülmüşəm. Gələcək illərdə xaricdə IT və ya fizika üzrə təhsil almağı planlaşdırıram. Hazırda Koreya universitetlərindən birindən qəbul almışam.